www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 23 noyabr 2016-cı il Çərşənbə № 260 (6581) Qiyməti 60 qəpik

Xəbər

## İş adamının intiharının ilginc detalları

yazısı səh.15-də

Gündəm

### İki həmsədr dəyişdi, bəs dəyişən nə olacaq?



"Qarabağ düyününü aça biləcək vasitəçilər nə vaxt gələcək" sualı növbəti ildə də öz aktuallığını saxlayacaq; amerikalı ekspert: "Ermənistan hələ anlamır ki, hansı qəliz situasiyaya düşüb"

yazısı səh.11-də

### "AST Telman"ın şəxsi və biznes həyatı - haradan-haraya...

yazısı səh.12-də

### Mirşahin xəstəliyindən danışdı

yazısı səh.3-də

### Rusiyada axtarışda olan iki nəfər Şəkidə tutuldu

yazısı səh.13-də

*Dünya Bankının eksperti:*

### "Azərbaycanda yaxın 2 ildə iqtisadi artım olmayacaq"

yazısı səh.5-də

### Ankara və Vaşinqton arasında gərginliyin artacağı barədə qorxunc proqnoz

yazısı səh.10-da

### Neft Fondu avronun ucuzlaşmasından milyonlar itirir

yazısı səh.12-də

### Toyuq başı kəsmək - qəddarlıq, yoxsa...

yazısı səh.13-də

### "Evdə oturub acından ölüncə..."- soyuq Bakı küçələrindən reportaj

yazısı səh.14-də

### Dünya üçün təhlükəli dəyişim: sağ millətçilər hakimiyyətə gəlir

yazısı səh.6-da

### Hakim oğlunun ölümündə günahlandırılanın məhkəməsi başladı

yazısı səh.6-da

## Beynəlxalq Bankla bağlı yeni qalmaqal, yoxsa "qara piar"?

# ELDAR MAHMUDOV MALİYYƏ NAZİRİNİ YENƏ HƏDƏFƏ ALDI - QUDALARIN QİSASI

2014-2015-ci illərdə Beynəlxalq Bankın Moskva filialına çirkli pulların yuyulması ittihamları niyə təzələnib?; sabiq MTN şefi və Cahangir Hacıyev başlarına gələnlərdə yeganə olaraq Samir Şərifovu təqsirli bilirlər və ondan əl çəkmirlər...



yazısı səh.5-də

# Putin erməni müdafiə nazirini Moskvaya çağırdı - motiv...

"Ermənistana "İsgəndər"lər ona görə verilib ki..." - Qərb nəşrindən sensasion iddia

yazısı səh.7-də



Bayram İsmayılov

### Sabiq əməliyyatçıdan vertolyot qəzası ilə bağlı şok açıqlamalar

yazısı səh.3-də



Mahir Dərziyev

### "Gürcüstan parlamentinin azərbaycanlı deputatı "Yeni Müsavat"a danışdı

yazısı səh.4-də



Eynulla Fətullayev

### ""Azərbaycanda diktatura olsaydı, Cəmil Həsənli ilə Əli Kərimlini o stadionda güllələyərdilər"

yazısı səh. 8 və 9-da

YENİ MÜSAVAT
N 260 (6581) 23 noyabr 2016



## Prezident ABŞ rəsmisini qəbul edib

**Prezident İlham Əliyev Amerika Birləşmiş Ştatlarının dövlət katibinin köməkçisinin Avropa və Avrasiya məsələləri üzrə müavini xanım Bridcet Brinki qəbul edib. APA-nın məlumatına görə, dövlət başçısı xanım Bridcet Brinklə bu ilin yayında ikitərəfli münasibətlər, regional məsələlərlə bağlı apardıqları geniş müzakirələri xatırlayaraq ölkələrimiz arasında uğurlu əməkdaşlığın ABŞ-ın yeni administrasiyası ilə də davam etdiriləcəyinə ümidvar olduğunu bildirib.**

B. Brink isə ölkəsinin Azərbaycana, bütövlükdə regiona olan güclü dəstəyini qeyd edərək Birləşmiş Ştatların bu istiqamətdə uzun müddət ardıcıl siyasət həyata keçirdiyini vurğulayıb.

Görüşdə Azərbaycanla Amerika Birləşmiş Ştatları arasında əlaqələrin hazırkı vəziyyəti və perspektivləri, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli yolları ətrafında geniş fikir mübadiləsi aparılıb.

## Kərbəla ziyarətindən qayıdan 500 azərbaycanlı sərhəddə qalıb

**Kərbəla ziyarətinə gedən azərbaycanlıları daşıyan avtobuslar İraq sərhədini keçdikdən sonra İranın Mehran sərhəd keçid məntəqəsində saxlanılıb. Bu barədə APA-ya hazırda İran ərazisində olan azərbaycanlı zəvvar Mirələm Həşimov məlumat verib.**

O bildirib ki, 16 saatdır İran ərazisindədirlər, sərhədçilər avtobusları buraxmırlar. İçərisində azərbaycanlılar olan 7 avtobus sərhəddə qalıb: "500-ə yaxın azərbaycanlı sərhəd məntəqəsində gözləyir. İnsanlar buraxılıb, sərbəstdirlər. İran ərazisində zəvvarların təhlükəsizliyini təmin edən sığorta şirkəti tərəfindən verilən hansısa sənədlərin qaydasında olmadığı deyilir. Şirkətin nümayəndəsi sənədləri düzəltmək üçün götürüb, lakin geri qayıtmayıb. Sənədi düzəltmək üçün hər avtobus üçün 200-250 dollar istəyirlər. İnsanlar ona da razıdırlar. Çünki burada 2 sutkadan çox gözləyən azərbaycanlılar var".

## Məhərrəmlik nə vaxt bitir?

**Məlum olduğu kimi, oktyabr ayının 3-dən etibarən İslam dünyasında Məhərrəmlik əyyamı başlayıb və müsəlmanlar 14 əsr öncə Kərbəla faciəsində şəhid olan İmam Hüseyn (ə) və tərəfdarlarına matəm saxlayır. Hazırda isə Məhərrəmlik əyyamının ikinci ayı olan Səfər ayı yaşanır.**

Beləliklə, Məhərrəmlik əyyamının çıxmasına bir neçə gün qalıb.

Dini məsələlər üzrə ekspert Kənan Rövşənoğlu "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, məhərrəmlik dövrü artıq bitir: "Noyabrın 20-də Ərbəin mərasimi, yəni İmam Hüseynin (ə) şəhid olduğu Aşuranın 40-cı günü qeyd olundu. Hazırda Səfər ayının (Hicri təqvimdə ilin ikinci ayı) 13-dür. Səfər ayının 28-də Həzrət Məhəmməd Peyğəmbər (s.ə.s) və İmam Həsənin (ə) Şəhadət günüdür. Bu səbəbdən də adətən Səfər ayının Ərbəindən sonrakı 10 günü də matəm günləri olaraq qəbul olunur. Yəni 7 gündən sonra Səfər ayı bitir".

Qeyd edək ki, müsəlmanlar, xüsusən də şiə məzhəbinin nümayəndələri matəm ayları sayılan Məhərrəm və Səfər aylarında toy və şənlik mərasimləri keçirməkdən imtina edirlər. Bu mənada Məhərrəmlik əyyamının bitməsi toyların başlaması deməkdir.

❑ NƏRGİZ

"Qaya Mətbuat Yayımı" MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

# ANS binasından çıxarılır

**Zoologiya İnstitutunun direktoru Elman Yusifov "Amerikanın Səsi"nə bildirib ki, ANS icarə müqaviləsini Əmlak Məsələləri Dövlət Komitəsi ilə bağlayıb.**

"Müqavilənin vaxtı bitdiyindən ANS-lə yeni müqavilə bağlanmayıb. Binada ANS-in yerləşdiyi sahələrin artıq Zoologiya İnstitutuna qaytarılmasına start verilib. Təhvil-təslim komissiyası fəaliyyət göstərir. Sadəcə ANS-in rəhbərliyi texniki avadanlıqları, maşın və mexanizmləri ərazidən çıxarmaq üçün vaxt verilməsini xahiş edib. Onlar yeni ofis icarəyə götürən kimi avadanlıqların boşaldılmasına başlanılacaq", - o qeyd edib.

"ANS-in ofisi məhkəmə prosesi başlayan gündən möhürlüdür və kanalın rəhbərliyi içəri daxil ola bilmir". Bunu isə



virtualaz.org-a ANS teleşirkətinin vitse-prezidenti Mais Məmmədov deyib.

Onun sözlərinə görə, telekanalın bütün avadanlıqları möhürlü ofisdədir və onları götürə bilmirlər.

Mais Məmmədov onu da əlavə edib ki, bağlanmış telekanalın rəhbərliyi və əməkdaşları hazırda ANS şirkətlər qrupuna daxil olan "ANS Kommers" şirkətinin ofisindədirlər.

## Büdcə müzakirələrinin vaxtı bilindi

**Noyabrın 30-da və dekabrın 1-də Azərbaycan Respublikasının 2017-ci il üzrə dövlət büdcə zərfi Milli Məclisdə komitələrin birgə müzakirəsinə çıxarılacaq.**

MM-dən APA-ya verilən məlumata görə, komitələrin iclasında plenar iclasa tövsiyə olunduğu təqdirdə, layihələrin dekabrın 6-da, 7-də və 8-də plenar iclasların müzakirəsinə çıxarılması gözlənilir.

Büdcə zərfinə "Azərbaycan Respublikasında 2017-ci il üçün yaşayış minimumu haqqında", "Azərbaycan Respublikasında 2017-ci il üçün ehtiyac meyarının həddi haqqında", "Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fondunun 2017-ci il büdcəsi haqqında" qanunlar, Milli Məclisin və Hesablama Palatasının 2017-ci il üçün xərclər smetaları daxildir.

## Parlament qalmaqallı qanun layihəsini müzakirə etməyəcək

**Türkiyədə bəzi hallarda yetkinlik yaşına çatmayanlarla cinsi əlaqəyə görə cinayət məsuliyyətinə cəlb edilməməklə bağlı qanun layihəsi ölkə parlamentinin gündəliyindən çıxarılıb.**

"Euronews" xəbər verir ki, Türkiyənin baş naziri Binəli Yıldırım hakim Ədalət və İnkişaf Partiyasının belə bir qərara gəldiyini bildirib.

Qeyd edək ki, qanun layihəsi bütün Türkiyə ərazisində hüquq müdafiəçilərinin etirazına səbəb olub.

Xatırladaq ki, sənəddə zor tətbiq etmədən yetkinlik yaşına çatmayanlarla cinsi əlaqədə olan, ardından nikaha girən insanları cəzalandırmamaq təklif edilib.

## Hillari Klintonun Fətullah Gülənlə nə əlaqəsi?

**Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan İsrailin "Kanal 2" telekanalına müsahibəsində ABŞ Demokrat Partiyasından prezidentliyə keçmiş namizəd Hillari Klintonu müxalifətçi islamçı Fətullah Gülənin təşkilatı FETÖ ilə əlaqələrinin mövcudluğunda ittiham edib.**

Virtualaz.org "Anadolu"ya istinadən xəbər verir ki, Ərdoğan deyib: "Onun seçki kampaniyası hansı mənbədən maliyyələşirdi? Türkiyədə mübarizə apardığımız FETÖ ona ciddi dəstək vermiş strukturlardan biri idi".

Ərdoğanın sözlərinə görə, Trampın prezident seçilməsi ABŞ-ın həyatında yeni dövrün başlanması deməkdir.

"Hesab edirəm ki, Avropanın bəzi yerlərində və ABŞ ştatlarında Trampa qarşı keçirilən nümayişlər demokratiyaya hörmətsizlikdir", - Türkiyə prezidenti əlavə edib.

Ərdoğan qeyd edib ki, Trampın müsəlmanlara qarşı aqressiv siyasət yürüdəcəyinə inanmır.

## Keçmiş futbolçu nazir postunda qaldı

**Gürcüstanın baş naziri vəzifəsinə namizəd Georgi Kvirikaşvili yeni hökumətin tərkibini açıqlayıb. "Report" Gürcüstan KİV-inə istinadən xəbər verir ki, Kaxa Kaladzenin namizədliyi yenidən energetika naziri vəzifəsinə irəli sürülüb.**

Mixeil Canelidze isə xarici işlər naziri postuna namizəddir.

Yeni hökumətin tərkibi təsdiqlənmək üçün parlamentə təqdim ediləcək.

## Kərimova "öldü" və dirildi...

**Özbəkistan xüsusi xidmət orqanlarındakı anonim mənbə bildirib ki, Gülnarə Kərimovanı noyabrın 5-də zəhərlə öldürüblər və gizlicə Daşkəndin "Minor" qəbiristanlığında basdırıblar.**

Xəbərə görə, onun qəbrini yerlə bərabər ediblər ki, basdırıldığı yeri tapmaq mümkün olmasın.

"İnterfaks" agentliyi Özbəkistanın birinci prezidentinin qızı Gülnarə Kərimovanın noyabrın 5-də zəhərlənərək öldürüldüyü haqda xəbərləri təkzib edir.

Virtualaz.org xəbər verir ki, bu barədə agentliyə "informasiyalı mənbə" bildirib. Lakin mənbə xəbərlə bağlı əlavə təfərrüatlar verməkdən imtina edib.

«RİA Novosti» agentliyi də analoji məlumat yayıb. Agentlik İslam Kərimovun ailəsinə yaxın mənbəyə istinadən bildirir ki, Gülnarə Kərimova sağdır və onun ölümü haqda yayılan xəbərlər yalandır.

## Gələn ildən isti suyun qiyməti də "üzəcək"

**Nazirlər Kabineti "Qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) Siyahısı"nda dəyişiklik edib. APA-nın məlumatına görə, dəyişikliyə əsasən isti su qiymətləri dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) siyahısı çıxarılıb.**

Bu qərar 1 yanvar 2017-ci ildən qüvvəyə minəcək.

## Qeyri-adi qış qapıda- 4 dərəcə şaxta gözlənilir

**Bakı və Abşeron yarımadasında noyabrın 23-də havanın arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir.**

Arabir güclənən şimal-qərb küləyi gündüz şimal-şərq küləyi ilə əvəz olunacaq.

Ekologiya və Təbii Sərvətlər Nazirliyindən APA -ya verilən məlumata görə, havanın temperaturunun yarımadada gecə 0-3° şaxta, gündüz 1-4° isti, Bakıda gecə 0-2° şaxta, gündüz 1-3° isti olacağı gözlənilir.

Atmosfer təzyiqi normadan xeyli yüksək 781 mm civə sütunu, nisbi rütubət 85-95 % təşkil edəcək.

Noyabrın 22-si gündüzdən 23-ü gündüzədək Abşeron yarımadasında şimal-qərb küləyinin arabir güclənəcəyi, fasilələrlə qar yağacağı gözlənilir. Havanın minimal temperaturu 23-24-də 0-4° şaxta təşkil edəcək. Şəhərətrafı ərazilərdə yolların buz bağlama ehtimalı var.

"Noyabrın ikinci ongünlüyündə temperaturun mənfi olması bu dövr üçün xarakterik deyil".

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Coğrafiya İnstitutunun İqlim və aqroiqlimşünaslıq şöbəsinin baş elmi işçisi, coğrafiya üzrə fəlsəfə doktoru Məhərrəm Həsənov APA-ya bildirib ki, yalnız dekabrın 10-dan sonra Bakıda mənfi temperaturlar müşahidə oluna bilər. Onun sözlərinə görə, noyabrın 23-24-də havanın temperaturunun 0-4 dərəcə şaxta olması qeyri-adi haldır.

M. Həsənov vurğulayıb ki, noyabrın sonlarında havanın normal temperaturu 2-3 dərəcə isti ola bilər: "Mənfi temperatur şimal rayonlarında - Şəki, Zaqatala və digərlərində mümkündür, ancaq Bakı üçün normal deyil. Havanın temperaturunun mənfi olması üçün ölkə ərazisinə kəskin arktik hava kütləsi daxil olmalı və bir neçə gün davam etməlidir. Bunun nəticəsində 4-5 dərəcə şaxta ola bilər. Amma bu gün ölkədə şimal-qərb hava kütləsi hökm sürür və bu hava kütləsinə uyğun olaraq havanın temperaturu 2-3 dərəcə isti olmalıdır. Axşamdan hava kəskin dəyişsə belə, yaxın iki gündə -4 dərəcə şaxtanın olması ehtimalı yoxdur".

YENİ MÜSAVAT
N 260 (6581) 23 noyabr 2016

**1991-ci ilin 20 noyabrında Qarakənd səmasında baş verən vertolyot faciəsindən (terrorundan) 25 il ötdü. Azərbaycanın nüfuzlu yüksək vəzifəli ictimai-siyasi xadimlərinin həlak olduğu həmin dəhşətli hadisə ilə bağlı müəmmalar, iddialar isə bitib-tükənmir.**



# Sabiq əməliyyatçıdan vertolyot qəzası ilə bağlı sensasion iddialar

**Bayram İsmayılov:** "Gözlərimlə gördüm, vertolyotda olmuş insanlar yanmış halda bir-birinin yanına və üstünə qalaqlanmışdılar, meyitlərin sayı 19 idi..."



Ən dəhşətli açıqlamalardan biri iki gün öncə - 21 noyabrda "Təzadlar" qəzetində yer alıb. 1991-ci ilin noyabrında DİN-in Baş Cinayət-Axtarış İdarəsində baş əməliyyat müvəkkili vəzifəsində işləmiş Bayram İsmayılov müsahibəsində deyib ki, vertolyot hadisəsinin baş verdiyi yerdə şəxsən olub və cəsədləri görüb. Vertolyotda olmuş şəxslərin bir neçəsinin cəsədi hadisə yerində olmayıb: "Hadisə baş verən gün saat 18 radələrində işlədiyim idarənin rəisi, polis polkovniki Qüdrət Paşayev məni, Əli Əliyevi və Əli Mərdanovu, Yaqub və Namiq adlı əməkdaşlarımızı otağına dəvət etdi. Bizə dedi ki, hazırlaşın, təcili Ağdama getmək lazımdır. Bildirdi ki, belə bir faciə baş verib. Bundan sonra biz dərhal evə gedib hazırlaşdıq və Namiqin "Qaz-31"i ilə Ağdama yola düşdük. Səhər saat 06 radələrində Ağdam RPŞ-yə çatdıq. Orada bir az gözlədik və təxminən saat 07-08 radələrində bizə bir avtobus verildi, təxminən 30 nəfərlə hadisə yerinə - Qarakənd istiqamətinə yola düşdük. Bizim avtobusda həm də Viktor Polyaniçko var idi, qabaq cərgədə oturmuşdu. Bir də səhv etmirəmsə, Şuşanın icra başçısı Vaqif Cəfərovun atası və onunla birgə olan başqa bir şəxs bizimlə idi.

Biz hadisə yerinə çatanda iki "BTR" və yanında da rus əsgərlərini gördük. Hadisə yerində avtobusdan düşdük. Vertolyotun vurulduğu yeri- hardasa hündürlüyü 40-50 metr olan kiçik təpəni gördük, təpənin zirvəsindən 10-12 metr aşağı sürüşmüş vəziyyətdə olan vertolyotun yanmış, dağılmış qalıqları görünürdü... Hadisə yerinə qalxdıq, vertolyot yanmış vəziyyətdə idi və onun bəzi hissələri ətrafa səpilmişdi. Qanadlarında isə iriçaplı silahdan atılmış güllə yerləri aydın görünürdü. Vertolyotda olmuş insanlar yanmış halda bir-birinin yanına və üstünə qalaqlanmışdılar. Tofiq İsmayılov və vertolyotu idarə edən vertolyotçu isə təpənin maili hissəsində, vertolyotdan təxminən 6-7 addım aralıda ölmüş vəziyyətdə yerə uzanmışdılar. Onların bədəni üzərində heç bir yanıq izi yox idi, mən bunu dəqiq deyirəm, yəni özüm görmüşəm. Oradan həmin dövrdə çəkilmiş videolara baxanda da bunu görə bilərsiniz.

Ola bilər ki, vertolyot vurulan anda ekipaj onu təpənin üstündəki kolluğa oturtmaq istəyib, sonra vertolyot 10-12 metr aşağı sürüşüb düşəndə Tofiq İsmayılov və ekipaj üzvü yerə tullananda ağır zərbəyə məruz qalmışdılar. Yaxud ola bilsin Tofiq İsmayılova küt alətlə kənarda ağır zərbə vurulmuşdu. Allah rəhmət eləsin, onun gözləri açıq idi. Mən onun gözlərində dəhşətli bir ölümün sözlə ifadə edilməz izlərini gördüm. Dəqiq yadımdadır, Polyaniçko gedib İsmət Qayıbovun cəsədinin qarşısında təxminən 5 dəqiqə dayanıb ona baxdı. Maraqlıdır ki, o, yalnız İsmət Qayıbovun yanında dayandı, sonra kənara çəkildi. Vertolyotun düşdüyü yerdən təxminən 10 metr aralıda təpəlik var idi, üstündə kol-kos, çox da hündür olmayan ağaclar var idi, qol-budağı qırılmışdı, qalxdım ora. Hiss olunurdu ki, vertolyot vurulandan sonra əvvəlcə həmin ağacların üzərinə oturtmaq istəyiblər. Bundan sonra isə vertolyot sürüşüb partladıldığı yerə gəlib düşmüşdü... Mən orda olan fakt və maddi sübutlardan, gördüklərimdən, söhbətlərdən belə başa düşürdüm ki, orda baş nazirin müavini Zülfi Hacıyevin cəsədi yanan meyitlərin arasında yoxdur. Özüm də görmədim. Eyni zamanda Məhəmməd Əsədovun *(sabiq daxili işlər naziri-red.)* meyiti. Həmçinin jurnalist Alı Mustafayevin, Səbayel rayon icra hakimiyyətinin başçısı Vəli Məmmədovun... Mən onların cəsədini meyitlərin arasında görə bilmədim... Hətta bizdən sonra oraya gələn Qüdrət Paşayev və Ağdam polisinin rəisi İslah Paşayev vertolyotun ətrafını çox axtardılar, sonra baş hissəsi yanmış bir nəfərin üzərində dayandılar ki, bu Məhəmməd Əsədovdur. Orda bildirdilər ki, onlar M.Əsədovu yanmış kəmərinə görə belə deyiblər, yəni onu kəmərinə görə tanıyıblar. Orda belə söhbət getdi. Mənim diqqətimi də elə bu cəlb etdi ki, vertolyot göydə partlamayıb, bu dəqiq belədir. Bir peşəkar polis işçisi, əməliyyatçı kimi belə qənaətə gəlirəm ki, vertolyot vurulandan sonra təpədəki ağacların üstünə oturdulub, sonra sürüşərək yandırıldığı yerə gəlib çıxmışdı. Bundan sonra lazım olan adamları erməni-rus cəlladları özləri ilə götürüblər, sonra vertolyotu yandırıb-partladıblar. Bu zaman, görünür, Tofiq İsmayılovla vertolyotu idarə edən hərbçi kənara çəkilib müqavimət göstəriblər və onları hansısa küt alətlə vurub öldürüblər. Adamların dəqiq sayına gəldikdə, mənim dəqiq yadımdadır, hadisə yerindən Ağdama gətirdiyimiz meyitlərin sayı 19 idi".

**Hazırda xaricdə mühacir həyatı yaşayan Daxili Qoşunların keçmiş komandanı Fəhmin Hacıyev isə "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, 1991-ci ilin 20 noyabr tarixində Qarakənd üzərində vertolyotun vurulması xüsusi xidmət orqanlarının hazırladığı və həyata keçirdiyi terror hadisəsi idi və nə qədər ki, həmin hadisə ilə bağlı bütün həqiqətlər ortaya çıxmayıb, həmişə saysız-hesabsız açıqlamalar, iddialar olacaq:** "Fikrimizcə, əməliyyatın hazırlanması və həyata keçirilməsi üçün əsasən ermənilərdən istifadə edilmişdi. O zamankı hadisələri və sonralar baş vermiş əhəmiyyətli hadisələri təhlil etdikdə insanın beynində suallar daha da çoxalır. Xatırlayırsınızsa, 1991-ci il sentyabrın 21-də Rusiya prezidenti Boris Yeltsin və Qazaxıstan prezidenti Nursultan Nazarbayev Azərbaycana səfər etmişdilər. Səfər zamanı Dağlıq Qarabağa gedib Azərbaycan və erməni əhali ilə görüşülməli, Xankəndində Dağlıq Qarabağ Təşkilat Komitəsində dördtərəfli görüş keçirilməli idi. Mən də AXC-nin ordu quruculuğu ilə bağlı komissiyasının sədri olaraq, Rəhim Qazıyevlə birlikdə Azərbaycan nümayəndələrinə dəstək məqsədilə Xankəndinə getmişdim. Xankəndində Yeltsinin hərəkətlərinə etiraz olaraq, Azərbaycan rəhbərliyində olan şəxslər - Tamerlan Qarayevdən başqa - Dağlıq Qarabağ vilayət komitəsinin binasına getmədilər. Çünki o binanın üzərində Azərbaycan bayrağı dalğalanmırdı, bina üzərində ermənilərin bayraqları var idi və ermənilərin idarəetməsində idi. Təşkilat Komitəsi isə Azərbaycanın idarəetməsində idi. O hadisədən düz iki ay sonra Azərbaycanın mövqeyini qətiyyətlə müdafiə edən həmin yüksək vəzifəli bütün şəxslər iki ay sonra - 20 noyabr tarixində vertolyotda vurularaq məhv edildilər. Bu iki hadisənin bir-biri ilə əlaqəsinin olması barədə inancım daha çoxdur. Amma Tamerlan Qarayevin həmin hadisədə əli olması barədə deyilənlərə inanmaq istəmirəm və belə düşünmürəm. Hadisədən qabaqcadan general Dadaş Rzayevin və onun Ağdamdakı nümayəndəsi olmuş Vahid adında şəxsin məlumatı olduğuna daha çox inanıram. Artıq heç kimə sirr deyil ki, Dadaş Rzayev SSRİ Müdafiə Nazirliyi Hərbi Kəşfiyyat İdarəsinin tapşırıqlarını uzun zaman dünyanın bir çox yerlərində icra edib. 20 noyabr vertolyot terroru ilə bağlı bütün həqiqətlər hələ də ortaya çıxmayıb. Nə zaman bütün həqiqətlər ortaya çıxacaqsa, hansı iddialar-ın, hansı şübhələrin doğru olduğu da bilinəcək".

❑ **Etibar SEYİDAĞA**



## Mirşahin xəstəliyindən danışdı

"İnşallah, 3-4 günə Bakıya qayıdacağam"

**ANS Şirkətlər Qrupunun vitse-prezidenti, telejurnalist Mirşahin Ağayevin Azərbaycanı tərk etməsi haqda yayılan xəbərlərin ardından onun əməliyyat keçirməsi xəbəri yayılıb. Mirşahin Ağayevin yaxınlarından əldə etdiyimiz məlumata görə, əməliyyatdan sonra onun vəziyyəti normaldır.**

"Bakıya nə vaxt qayıdacağı məlum deyil. Hər şey vəziyyətinin düzəlməsindən asılıdır Mirşahinin səhhətində çoxdan problemlər var idi. Həkimlər yayda əməliyyat olunmağı tövsiyə etmişdilər. Lakin ANS-in bağlanması planları pozdu. Ona görə əməliyyat gecikdi. Vəziyyəti ciddi olduğu üçün Türkiyəyə getməli olub" - mənbə bildirib. Adının çəkilməsini istəməyən şəxs bildirdi ki, Mirşahin Ağayev onkoloji problemə görə əməliyyat keçirib.

Mirşahin Ağayevin özü ilə də əlaqə saxlamağa çalışdıq. O isə danışmaq istəmədiyini bildirərək, Mais Məmmədovla əlaqə saxlamağımızı tövsiyə etdi. ANS Şirkətlər Qrupu prezidentinin media üzrə müşaviri Mais Məmmədov "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, Mirşahin Ağayevin Azərbaycandan köçməsi ilə bağlı xəbər yalandır: "Mirşahin Türkiyəyə əməliyyat üçün gedib, şənbə günü əməliyyat olunub. Həmin saytlar yalan yazırlar, yaxşı ki, Mirşahinin Amerikaya qaçdığını yazmayıblar, Trampın yanına... Bunu da yaza bilərdilər. Mən bu yalan informasiyaların səbəbini bilmirəm. Axı belə deyil. Biz açıqlama vermişik ki, yayılan informasiyalar şayiədir".

**M. Məmmədov onu da bildirdi ki, Mirşahin Ağayev mədəsindəki problemlə bağlı əməliyyat keçirib və hər hansı onkoloji xəstəliyi yoxdur:** "Şükür Allaha, əməliyyat yaxşı keçib, uğurlu əməliyyat olub. İndi yavaş-yavaş özünə gəlir. Lakin onkoloji problemin olması ilə bağlı xəbərlər yalandır. Onkoloji xəstəlik yoxdur. Min şükür olsun ki, yoxdur. Həkimlər nə vaxt icazə versə, ölkəyə qayıdacaq. Yəqin ki, 4-5 gün çəkər".

**Mais Məmmədov Mirşahinin əməliyyat üçün niyə məhz Türkiyəni seçməsi ilə bağlı sualımıza cavab olaraq bildirdi ki, o çox zaman müalicəsini Türkiyədə alıb, bu dəfə də eyni həkimlərə üz tutub:** "Onun müalicəsini Türkiyədəki həkimlər ediblər. Daha əvvəl də 3-4 dəfə gedib. Bu dəfə də əməliyyat üçün oraya gedib. Biz də onun qayıtmasını gözləyirik. O özü də dilxordur, hər gün 3-4 dəfə zəng edib şirkətlə bağlı buradakı vəziyyəti soruşur. Həkimlər icazə verən kimi qayıdacaq".

**Mais Məmmədov ANS-in yenidən fəaliyyətə başlayacağı ilə bağlı xəbərlərə də münasibət bildirdi:** "Mən bilmirəm və dəqiq heç nə deyə bilmərəm. Hələ ki mən bu şad xəbəri eşitməmişəm. Biz də çalışırıq, Allaha yalvarırıq, prezidentimizdən xahiş edirik ki, ANS yenidən fəaliyyətə başlasın. Baxaq, görək necə olacaq. İnanırıq ki, Allah üzümüzə baxacaq və bu şad xəbəri eşidəcəyik".

**Əlavə edək ki, ANS prezidenti Vahid Mustafayev Mirşahin Ağyaevin xəstəxana palatasında çəkilmiş videoçıxışını öz səhifəsində yerləşdirib. Vahid Mustafayevin paylaşdığı video aşağıdakı cümlələrlə müşayiət olunub:** "Bu gün *(dünən-red.)* Azərbaycan mediasında gecikmiş bir xəbərə rast gəldim. Qardaşım və silahdaşım Mirşahinin ölkəni tərk etməsi nəyə görəsə 5 gündən sonra gündəmə gətirilir. Mətbuatın ona göstərdiyi diqqətə görə təşəkkürümü bildirirəm. Amma eyni zamanda Mirşahinin ətrafında bu qədər ajiotaj yaranmasına da təəccüblənirəm. ANS bağlananda bele hay-küy olmamışdı. Nə olub ki? Nə fövqəladə hadisə baş verib ki? Muayinə və əməliyyat səbəbiylə Turkiyəyə, qardaş ölkəyə gedib, heç bir təhlükə-filan yoxdur, əməliyyatı uğurlu olub, bərpa prosesindədir.

Bütün söz-söhbətlərə son qoymaq üçün mənə yolladığı şəxsi videoismarışı paylaşıram".

Videoda Mirşahin öz xəstəliyindən danışır və "İnşallah, 3-4-günə Bakıya qayıdacağını" deyir.

❑ **Nərgiz LİFTİYEVA**

YENİ MÜSAVAT
N 260 (6581) 23 noyabr 2016

# "Saakaşvilini parlament yetişdirdi, parlament də yıxdı..."

## Gürcüstan parlamentinin azərbaycanlı deputatı Mahir Dərziyev "Yeni Müsavat"a danışdı





**Gürcüstan parlamentində təmsil olunan azərbaycanlı deputatlarla çox istərdim ki, elə öz iş yerlərində görüşüm. Xitabət kürsüsündən görüm necə nitqlər söyləyirlər. Sinələrini necə irəli verirlər xalqın çətin günlərində. Səsvermə zamanı düyməni necə basırlar, parlament komissiyalarında necə təmsil olunurlar. Xarici qonaqlara öz dərd-sərlərini danışırlarmı, yoxsa danışmırlar...**

Lakin təəssüf ki, bizdən asılı olmayan səbəblərdən həmin dörd deputatdan ancaq biri-Mahir Dərziyevlə parlament divarları arasında deyil, tamam başqa ünvanda görüşdük. Görüşümüz Marneulidəki kiçicik "Qold" hotelində baş tutunca, sizdən nə gizlin, əvvəlcə özümü aşıq məclisində hiss etdim. Mahir Dərziyevin səs ahəngi, nəfəs almağının özü ustad aşıqlarla demək olar eynidir, vallah. Söhbətimizdə bircə saz əskikdi sanki. Lakin tezliklə söhbətimizin ovqatı dəyişib müəllim, pedaqoq ahəngi ilə əvəzlənəndə, dedim, yoxxx... Mahir Dərziyev barədə ilk təəssüratlarım, görünür, aldadıcıymış. Söhbətimiz qızışdıqda həmin bu pedaqoq nəfəsi qəfil bizləri tərk etdi. Qulaqlarımda Gürcüstan parlamentinin oynaq səs ritmlərini duyub dedim özümə -"Aha...bu səs tembri məni tam təmin edir. Çalışmaq lazımdı o, söhbətimizdən daha itməsin".

***

70-80-ci illərdə Kirov adına Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini fərqlənmə diplomu ilə bitirən Mahir Dərziyev ovaxtkı dissidentlərlə də tanış olub, universitetin divar qəzetində getmiş siyasi səhvə görə ovaxtkı komsomol rəhbəri Vaqif Hüseynovun kabinetinə də dəvət olunub.

- "Tərbiyəvi söhbət" deyərdilər o vaxtlar buna. O cür süzgəclərdən sonralar çox keçdik. Gəlib yetişdik indiki halımıza.

***- Gürcüstan parlamentində o cür "tərbiyəvi söhbətlər" indi də keçirilirmi?***

Sualım Mahir müəllimi diksindirib çaşdırır. Sifətinə kölgə qonur sanki.

- Yoxxxx... Gürcüstan parlament respublikasıdır, Azərbaycan isə prezident respublikası. Ölkələrimiz bir növ "mehriban çəpər qonşuları" olsa da, aramızdakı bax bu fərqlər bəri başdan çox məsələləri təyin edir. Bizdə parlament komissiyalarında qızğın qanunvericilik fəaliyyəti bir an belə səngimək nədir bilmir. Siyasi həyatın ağırlıq mərkəzi məhz parlamentdədir. Hakimiyyət olimpində qalmaq istəyənlər mütləq parlamentdə güclü fraksiyalara malik olmalıdırlar. Saakaşvilini parlament yetişdirdi, parlament də yıxdı.

***- Saakaşvili dövrünə nöqtə qoyanlardan biri də siz olubsunuz, həmkarınız Azər Süleymanovdan fərqli olaraq.***

- Gürcüstandakı qızğın siyasi həyat heç vaxt öz sakitliyi ilə seçilməyib, biləsiz haaaa...

**Mahir bəyin nitqində yenə bircə an aşıq havası canlanıb tez də öləziyib itir.**

- Saakaşvili rejiminə əvvəlcədən qarşıydım. "Qızılgül inqilabı" başlayandan əvvəlcə mərhum Allahverdi Hümbətovla birgə Zurab Jvaniyanın yanındaydım. Bilirsiz də, Jvaniyanın müəmmalı ölümü indiyədək tədqiq olunur... Sonra keçdim Nino Burcanadzenin müxalifət düşərgəsinə. Sonra... sonra mənsub olduğum "Gürcüstan arzusu" partiyası 2012-ci il seçimlərində qələbə qazanan gündən indiyədək, şükür, iqtidar düşərgəsindəyəm. Təəssüf ki, Saakaşvilini Bakıda indiyədək demokrat kimi tanıyırlar. Əslində bu qətiyyən belə deyildir.

***- Bizi maarifləndirin də bu sahədə. Gürcüstan sirlərini siz bilərsiz, biz yox...***

- Öz diktaturasına demokratiya adını verməşdi o. Çıxın Borçalıya, yolda gördüyünüz hər adama Saakaşvili barəsində sualınızı verin. Eyni cavabı eşidəcəksiz -"Şevardnadze dövründə can güvənliyi yoxdu, Saakaşvili dövründə mal-mülk güvənliyi". Girdilər sadə dinc sakinlərin dükanına. Cumurdular kassa aparatları üstünə. Baxırdın dükanda heç 3 larilik mal yoxdu, əvəzində sahibinə 50 min lari cərimə yazıblar. Qondardığı "Sinqapur modeli"ndən ağızdolusu danışsa da, bütün bunlar elə kağız üzərindəydi, real həyatda yox. Dediklərinin hamısı deklarativ idi. O cümlədən Avropaya inteqrasiya siyasəti də, bəli, deklarativdir. Nisyəydi. Nağdı deyildi. Bizim "Gürcüstan arzusu" Partiyası real addımlara əl atdı bu sahədə, Avropa İttifaqı ilə "Assosiativ əməkdaşlıq" barədə sazişə qol atdı. Bəlkə də 500 səhifəlik qalın kitabdır... 2014-cü ildə imzalanmış bu saziş.

***- Avropaya vizasız gəl-get məsələsində bəs necə, irəliləyiş varmı?***

- Bu sahədəki boş-boş söhbətlər Saakaşviliyə aiddi. Real uğurlar isə "Gürcüstan arzusu" Partiyasına. Uzağı bir aya bu da öz həllini tapacaq. Tezliklə Gürcüstan azərbaycanlıları da viza əzabından birdəfəlik canlarını qurtaracaqlar.

## "Tezliklə Gürcüstan azərbaycanlıları da viza əzabından birdəfəlik canlarını qurtaracaqlar"

Mahir Dərziyev cümləsinin sonunu yüksək səslə deyib, ətrafımızdakı sadə müştərilərin bütün diqqətini özünə cəlb etməyi bacarır. Müştərilər öz aralarında xosunlaşmağa başlayırlar. Bəziləri, hiss olunur, artıq özlərini Dunay sahillərində, Hamburq küçələrində görüb sərbəst addımladığı o xoş günləri indidən xəyallarında canlandırırlar.

**Mahir Dərziyevin bu nitqindən sonra dinləyicilərimizin sayı göz görə-görə artır hər an. Görürəm kimsə bir başqasının qulağına nəsə pıçıldayır.**

**Bu canlanma məni də vəchə gətirir birdən-birə. Lap qızışıram. İvanəşvili hökumətinin daxili sosial-siyasəti barədə növbəti sualımı verməyim Mahir müəllimin lap ürəyincə olur.**

- Dünya reytinq agentlikləri də təsdiqləyir- "Biznes azadlığı" şkalasında Gürcüstan dünyada birinci yerdədir. "Gürcüstanda istehsal et!" layihəsi çərçivəsində dövlət özəl banklara ucuz kreditlər paylayır. Kənd təsərrüfatı sahəsində də oxşar ucuz kreditlər də çoxdur ki, az deyil. Banklar illik 2-3 faizlə kəndlilərə, fermerlərə güzəştli kreditlər verir. Kəm-kəsiri dövlətdən alır. Dövlət əkinəcəkləri, zəmiləri əkinə yaralı hala salır, şumlayır, dərmanlayır, sonra verir öz sahiblərinin ixtiyarına.

Arxamızdakı müştərilər masadakı çaylarını çoxdan soyudublar. Dinməzcə Mahir müəllimi dinləyirlər. Geri qanrılıb bunu görəndə mənim də ruhum sanki bədənimdən oynayır. Gözlərim qarşısında öz əkin sahələrində addımlayan xoşbəxt kəndlilər, borçalılılar görüb eşitdiklərimə bərk təəccüblənirəm. Kaş bizdə də belə olaydı, vallah.

- Kəndlilərin kredit kartlarına vaxtlı-vaxtında gübrə və digər vacib xərclərin pulu yüklənir. İstəyirsiz, bunu arxanızdakı borçalılılardan soruşun.

Sualıma ehtiyac qalmır. Kəndlilər lal baxışlarıyla deyilənləri təsdiqləyirlər.

***- Bəs tibbi sahədə hansı nailiyyətləriniz mövcuddur?***

**Mahir müəllimin masa üzərindəki əlləri, görürəm, narahatdır. Barmaqları elə bil parlamentdəki səsvermə düyməsini axtarır.**

- Tam pulsuz tibbi xidmət. Ən böyük nailiyyətimiz budu. Məsəl üçün, 100 mindən çox Gürcüstan vətəndaşı "Hepatit C" xəstəliyinə mübtəladır. Onlardan 20 mini pulsuz müalicəyə cəlb edilib. Xarici dərman istehsalçıları xahişimizi nəzərə alıb onlara pulsuz dərman paylayır.

***- Bəs təhsil sahəsində uğurlarınız varmı?***

- Bəli. 25-dən çox ixtisas sahəsi üzrə pulsuz təhsilə başlamışıq. Gələcək mütəxəssislərimizi indidən yetişdiririk. Dərsliklər pulsuzdu, dövlət uşaq bağçaları da. 2017-ci ili bizim "Gürcü arzusu" Partiyası "Təhsil ili" elan edib.

***- Ənənəvi üzümçülük sahəsində necə, irəliləyişlər gözə dəyirmi?***

- Bəs necə? Dövlət üzüm məhsulunu kəndlidən sabit qiymətlərlə alıb bu sahənin təhlükəsizliyini təmin edir. Rusiya bazarına ixrac artır ilbəil. İnanmazsız, Çinə şərab satmağa başladıq.

Yaşadığımız "Qold" hotelindəki dinləyicilərimizin, tamaşaçılarımızın sayı anbaan artdıqca deyilənlərin tam həqiqət olduğuna şək-şübhəm qalmır. Çaylarımız soyusa da, ürəklərimiz qızışıb elə bil. Ürəklər isə çaydan fərqli olaraq çox gec soyuyur burda-Səməd Vurğunun "axmanaqo qızıl Gürcüstan" dediyi bu gözəl, əfsanəvi diyarda.

***

Mahir Dərziyev ixtisasca tarixçidir. İlk növbədə o, doğma Nəcməddin kəndinin əvəzsiz bilicisidir. Deyir bəs kəndliləri bu kəndin adını təhrif edib ona Ləcməddin deyirlər öz aralarında. Ərəbcə "dinin ulduzu" mənasını verən bu ad çox çəkici görünür mənə.

***- Dinin, elmin, təhsilin ulduzu sizin səmalardadırmı, Mahir bəy.***

- Onu görmüşəm kəndimiz üzərində. Gözəldir -deyən Mahir müəllimin səmimiliyinə şübhəm yoxdu. Şevarnadze dönəmində çoxları Borçalını tərk etdiyi çətin vaxtlarda Mahir bəy o axara qoşulmayıb. Əksinə, kəndində özünə ev inşa etməyə başlayıb.

- Köçənlər o evimin qarşısından keçərkən əllərini avtobus pəncərələrindən çıxarıb mənlə sağollaşmağı unutmazdılar. Qəribə kənddir bizim bu Nəcməddin kəndi. Ermənilərlə 1918-ci il döyüşləri zamanı Burda Qara Seyid adlı bir kəramət sahibi varmış. Camaat kəndən qaçmaq istərkən öz əmmaməsini açıb yola atıb. Deyib mənim əmmaməm üzərindən keçmək istəyirsiz keçin. Xeyir tapmayacaqsız ancaq. Camaat da bir bu əmmaməyə baxıb o vaxt. Bir göydəki o bəxt ulduzumuza. Geri qayıdıb. Əmmaməni tapdalamayıblar.

Sona qarı adlı bir qarı da varmış bu ünvanda. Arvadlara kişi yapıncısı geydirib, başlarına motal papaq qoydurub. Düşmənlərə uzaqdan göstərib ki, guya kənddə bu qədər yapıncılı başıpapaqlı var.

İndi bu ənənəni Mahir kimilər davam etdirirsə, şükür. Deməк, o bəxt ulduzu hələ də göydədir Borçalıdakı Nəcməddin kəndinin.

❑ **Həmid HERİSÇİ**

YENİ MÜSAVAT
N 260 (6581) 23 noyabr 2016

## Beynəlxalq Bankla bağlı yeni qalmaqal, yoxsa “qara piar”?

# Eldar Mahmudov maliyyə nazirini yenə hədəfə aldı - qudaların qisası

### 2014-2015-ci illərdə Beynəlxalq Bankın Moskva filialında çirkli pulların yuyulması ittihamları niyə yenidən “təzələnib”?; Sabiq MTN şefi və Cahangir Hacıyev başlarına gələnlərdə yeganə olaraq Samir Şərifovu təqsirli bilirlər və ondan əl çəkmirlər...

**Beynəlxalq Bankın İdarə Heyətinin sabiq sədri, ötən ay məhkəmə hökmü ilə 15 il müddətinə azadlıqdan məhrum edilən Cahangir Hacıyev məhkəmədə “maliyyə nazirinin yeri burada mənim yanımdadır” sözünü gerçəkləşdirmək üçün daha bir həmlə edib. Belə ki, «Beynəlxalq Bank işi» ilə bağlı mediada ortaya çıxan qalmaqal yenə maliyyə naziri Samir Şərifovu hədəfə çıxarmaq cəhdinə çox oxşayır. Amma bu barədə bir qədər sonra...**



Noyabrın 22-də “Azərbaycan Beynəlxalq Bankı” ASC-nin Moskva filialının çirkli pulların yuyulmasında ittiham olunması barədə xəbər yayılıb. Azadlıq-Radiosunun məlumatına görə, Sankt-Peterburq şəhərində yerləşən “Azərbaycan Beynəlxalq Bankı-Moskva” ASC-nin fəaliyyəti ilə əlaqədar Rusiyanın Daxili İşlər Nazirliyi Mərkəzi Bankın Şimal-Qərb Baş İdarəsinin rəhbərliyinə müraciət edib. Məktubda deyilir ki, hüquq-mühafizə orqanları “InTransServis” ASC ətrafında araşdırma apararkən bankın fəaliyyəti ilə bağlı bir sıra qanunsuzluqlar aşkarlayıblar. “Araşdırma nəticəsində üzə çıxarılıb ki, bank cinayət yolu ilə əldə olunmuş vəsaitlərin leqallaşdırılması *(çirkli pulların yuyulması)*, terrorçuluğun maliyyələşdirilməsi ilə mübarizəyə dair qanunlara əməl etmir”.

Məlumata görə, eyni adamların yaratdığı “birgünlük” şirkətlər vasitəsilə ölkədən böyük həcmdə vəsaitlər çıxarılıb. Həmin pul köçürmələrini də “Azərbaycan Beynəlxalq Bankı-Moskva” gerçəkləşdirib. Məktubda Mərkəzi Bank rəhbərliyindən xahiş olunur ki, “Azərbaycan Beynəlxalq Bankı-Moskva”ya vəzifə öhdəlikləri, o cümlədən çirkli pulların yuyulmasını əngəlləyən qanunlara əməl olunmasının vacibliyi xatırladılsın, şübhəli əməliyyatlar haqda hüquq-mühafizə orqanlarına məlumat verilsin.

C.Hacıyev məhkəməsində indi yayılmış məlumatları sanki əvvəlcədən də bilirmiş kimi xatırladaraq sensasion sayıla biləcək bir əlavə də etmişdi: “Samir Şərifovun adamları barəsində cinayət işi gedir”.

Beynəlxalq Bankın mətbuat xidməti dərhal açıqlama yayaraq bu məsələnin bankın 2012-ci ildəki fəaliyyət dövrünə aid olduğu bildirib. Qeyd edilib ki, bunu surəti yayılmış məktubun tarixindən və məzmunundan da görmək mümkündür. Belə ki, məktub 12 yanvar 2016-cı il tarixində təqdim olunub. Məzmununda isə 2012-ci ildə aparılmış əməliyyatlardan bəhs edilir.

Mətbuat xidmətindən o da bildirilib ki, “Beynəlxalq Bank-Moskva” ASC-nin fəaliyyəti tam qanunvericilik çərçivəsində qurulub və burada hər hansı şübhəli əməliyyatların aparılması mümkünsüzdür.

“Yeni Müsavat” xatırladır ki, Beynəlxalq Bankın Moskva filialı 2001-ci ilin yanvarında yaradılıb. Onun ilkin nizamnamə kapitalı 2,11 milyard rubl təşkil edib. Bankın yeganə təsisçisi və sahibi Azərbaycan Beynəlxalq Bankıdır. Rusiyadan Azərbaycana həyata keçirilən pul köçürmələrinin yarısından çoxu Beynəlxalq Bank vasitəsilə aparılırdı. Bu köçürmələrin ümumi illik həcmi Rusiyadakı böhrandan əvvəllər 120 milyon dollardan çox olub. Bankın Sankt-Peterburq filialı isə 2003-cü ildə açılıb. Ötən ilin dekabrında Sankt-Peterburq filialında Rusiya hüquq-mühafizə orqanlarının əməliyyat keçirməsi barədə məlumatlar da vardı ki, Beynəlxalq Bank bunu “bir müştəri ilə bağlı əməliyyat olduğunu” iddia edib.

Doğrudan da, internet resurslarında araşdırmamız zamanı məlum oldu ki, 2014-2015-ci illərdə Rusiya Mərkəzi Bankı Beynəlxalq Bankın Moskva filialını çirkli pulların yuyulması haqda qanunu pozmaqda ittiham edib. Məsələn, ötən il yayılan məlumatda bildirilirdi ki, Beynəlxalq Bankın Moskva filialı “Cinayətkar yollarla əldə edilmiş gəlirlərin leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Qanunun 15.27-ci maddəsinin 1-ci hissəsini pozmaqda günahlandırılıb. Bu qanun pozuntusuna görə bank inzibati məsuliyyətə cəlb edilib və ona rəsmi xəbərdarlıq olunub" deyə, məlumatda bildirilirdi.

Beynəlxalq Bankın Moskva filialının o zamankı rəhbərliyinin qanunsuz əməlləri barədə məlumatlar C.Hacıyev İdarə Heyətindən uzaqlaşdırılandan sonra yayılmağa başlamışdı. İddia olunurdu ki, yaradıldığı vaxtdan Rusiyada yaşayan azərbaycanlılara bankın Moskva filialından ya kredit verilməyib, ya da müraciət edənlərə kreditin əvəzində 10-15 faiz həcmində pul verilib. Beynəlxalq Bankdakı filial müdiri Fuad Abdullayev Moskvada özünə var-dövlət qazanıb və oliqarx kimi yaşayıb.

O, Beynəlxalq Bankın pulu ilə Moskvanın Lenin prospektindəki “Forto-Pyano” yaşayış kompleksi üçün azərbaycanlılardan külli miqdarda pul yığsa da, onları aldadıb. Bu işdə isə filialın kreditlər şöbəsinin direktoru, Abbas Abbasovun qardaşı Nadir Abbasovun kürəkəni Fərhad Rüstəmovun adı hallanıb.

Bir neçə ay Bakıda həbsdə qalan N.Abbasov Beynəlxalq Bankdan məhz kürəkəni vasitəsilə 10 milyon kredit götürmüşdü ki, görünür, borcunu ödədiyi üçün azad edilib. Ümumiyyətlə, terrorçuluğu maliyyələşdirmədə günahlandırılan Moskva filialının əvvəlki rəhbərliyinin Abbas Abbasovla yaxınlığı, hətta ona işlədiyi barədə iddialar vardı.

Ötən ilin noyabr ayının sonunda “ABB-Moskva”nın İdarə Heyətinin sədri Fuad Abdullayev işdən çıxarıldı. Onun yerinə indi Samir Şərifovun kadrı deyilən Emin Əfəndiyev təyin edildi.

C.Hacıyevin məhkəmədə deyib ki, “qısa müddət ərzində Samir Şərifovun yarıtmaz siyasəti və səriştəsiz kadrları təyin etməsi nəticəsində digər layihələr kimi, o bankın da *(Moskva filialı nəzərdə tutulur-red.)* sonuna çıxdılar”. C.Hacıyevin iddiasına inansaq, söhbət bankın ondan sonra təyin edilən rəhbərliyindən gedir: **“Samir Şərifov ictimaiyyətə açıqlama versin ki, nəyə görə dövlət adından təyinat alan Beynəlxalq Bankın Moskva bankının rəhbərliyi barəsində ”çirkli pulların yuyulması" ittihamı var? Bəlkə Samir Şərifovun adamı olan şəxslər barəsində açılan cinayət işini də təcridxanadan mən idarə etmişəm? Maliyyə Nazirliyinin rəhbərliyi bu gün leqal yollarla deyil, cinayətkar aləmlə əlbir olub, Beynəlxalq Bankın Moskva bankını ayaqda tutmağa çalışır".**

****

Sənədlərdən və internet resurslarından qısa araşdırma da təsdiq edir ki, ittihamlar məhz C.Hacıyevin rəhbərlik etdiyi dövrlə bağlıdır.

Amma onun yenidən və niyə indi mediada “canlanması” daha ciddi suallar doğurur, üstəlik, hərtərəfli araşdırma tələb edir.

Aydındır ki, Moskva filialının adı xatırlanan kimi, C.Hacıyev də yada düşəcəkdi, onun məhkəmədə dedikləri də, Samir Şərifovu hədəfə alması da... Bu, ləğv edilmiş MTN strukturunda illərlə tətbiq edilmiş və “sınanmış” bir texnologiyadır: “Çamuru at, kimsə bulaşacaq”...

***

Eldar Mahmudov və onun qudası Cahangir Hacıyev bütün bu başlarına gələnlərdə yeganə olaraq Samir Şərifovu təqsirli bilirlər. C.Hacıyevin bütün məhkəməsi müddətində maliyyə nazirini hər fürsətdə hədəf alması buna sübutdur. Hələ məhkəmədən bir neçə ay əvvəl, konkretləşdirsək, bu ilin martında Ukraynanın “Qordon” agentliyi ABŞ-ın maliyyə analitiki kimi təqdim olunan Yuri Şvetsin müsahibəsini yaymışdı. Yuri Şvets Samir Şərifovun üç ölkənin - Rusiya, Türkiyə və ABŞ-ın xüsusi xidmət orqanları ilə eyni vaxtda əməkdaşlıq əlaqələrinin olduğunu iddia etmişdi.

Mediada ciddi müzakirələrə yol açmış bu “qaralamanın” arxasında Eldar Mahmudovun dayandığı bildirilirdi. İddia olunurdu ki, S.Şərifovun “üçqat agent” olması barədə dosyenin keçmiş KQB zabiti, hazırda ABŞ-da fəaliyyət göstərən Yuri Şvetsə ötürülməsini təşkil edən məhz keçmiş milli təhlükəsizlik naziri E.Mahmudovdur. Səbəb isə sabiq nazirin və yaxın ətrafının qisas hissidir...

Beynəlxalq Bankla bağlı köhnə xəbərlərin “yenilənməsi” indi həm də o versiyanı bir daha gücləndirir ki, E.Mahmudov hələ də düşmənləri ilə “kompromat qovluqları” vasitəsilə danışmağa üstünlük verir. Onun bu vaxtadək həbsdən sığortalana bilməsinin yeganə səbəbi də bu “gücüdür”.

❑ “YM”



## Dünya Bankının eksperti: “Azərbaycanda yaxın 2 ildə iqtisadi artım olmayacaq”

**“Məzənnənin sabitliyi uğurlu iqtisadi siyasətin göstəricisi ola bilməz. Çünki məzənnə iqtisadiyatda baş verən proseslərə, şoklara adekvat reaksiya verməlidir”. “Report” xəbər verir ki, bunu Dünya Bankının Avropa və Mərkəzi Asiya üzrə baş iqtisadçısı Hans Timmer deyib.**

H.Timmer, ümumiyyətlə, məzənnənin sabitləşdirilməsi siyasətinin yürüdülməsinin doğru olmadığını deyib: “Hazırda Azərbaycanda 3%-lik iqtisadi geriləmə var. İnfliyasiya ikirəqəmli səviyyədədir. Növbəti iki ildə də bu, 3% səviyyəsində olacaq. Bu, o deməkdir ki, qarşıdakı 3 ildə 0 iqtisadi artım olacaq”.

DB rəsmiləri qeyd edib ki, Azərbaycanda iqtisadi resessiya mövcuddur: “Biz Azərbaycanda pul siyasətinə baxmağı tövsiyə edirik. Həmçinin maliyyə sektoru sabitləşdirilməlidir. Neftin qiymətində olan azalma bank sektoruna mənfi təsir edir. Bankların restrukzasiyasına ehtiyac var. Problemli kreditlər artıb. Orta və uzunmüddətli tədbirlər görülməlidir”.

“Qarşıdakı 3 ildə ehtiyaclı insanlara sosial yardımlar ayrılmalıdır”, - deyən H.Timmerin sözlərinə görə, bu yardımlar həmin qrup insanların son illər baş verən proseslərdən az əziyyət çəkməsi üçün edilməlidir. “Azərbaycanda rəqabətlilik mühiti əhəmiyyətli dərəcədə geriləyib. Məhz rəqabət qabiliyyətinin artırılmasına ehtiyac var”, - deyə DB eksperti vurğulayıb.

YENİ MÜSAVAT
N 260 (6581) 23 noyabr 2016

**AĞ Partiya sədri Tural Abbaslı Vətəndaş Həmrəyliyi Partiyasının qərargahında Milli Dirçəliş Gününə həsr olunmuş tədbirdə çıxış edərək müxalifət partiyalarını birlik mitinqinə səsləyib. Bəs müxalifət partiyalarının birlik mitinqi keçirmək fikri varmı? Yaxın bir-iki ay üçün partiyaların gündəmində nələr nəzərdə tutulub?**

# Müxalifətin birlik mitinqi ideyasına reaksiyalar

## Partiyaların yaxın aylar üçün planları nədir?

AMİP-in sədr əvəzi Arzuxan Əlizadə bildirdi ki, müxalifətin birlik mitinqi təklifi zaman-zaman verilib. Amma görünən odur ki, son illər ərzində müxalifət partiyalarının bir araya gələrək birlikdə kütləvi tədbir keçirmək istəyi elə istək olaraq da qalıb. Heç şübhəsiz ki, bunun bir çox obyektiv və subyektiv səbəbləri var: "İlk növbədə keçiriləcək kütləvi tədbirin konkret məramı və məqsədi olmalıdır və həqiqətən də tədbiri keçirən təşkilatların səmimi birliyini nümayiş etdirməlidir. Əksinə, təcrübədə gördüyümüz kimi, hansı təşkilatın daha güclü olduğunu nümayiş etdirməsi üçün mübarizə meydanına çevrilməməlidir. Təəssüf ki, qeyd etdiyim bu amil son dövrlərdə dominant olub və acı nəticə də göz qabağındadır.

Partiyamızın yaxın dövr üçün planlarına gəldikdə, ilin sonunadək bir sıra tədbirlərin keçirilməsini nəzərdə tutmuşuq. AMİP geniş beynəlxalq əlaqələrə malik siyasi təşkilatdır. Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması baxımından bu sahədə fəaliyyətimizi daha da gücləndirmək istiqamətində mütəmadi işlər görülür. Təmsil olunduğumuz Beynəlxalq Demokrat İttifaqına üzv olan xarici siyasi təşkilatlarla daim təmaslarımız olur, müxtəlif Beynəlxalq tədbirlərdə iştirak edir, səfərlərdə oluruq. Eləcə də vaxtaşırı Bakıda da beynəlxalq tədbirlər keçirməyə çalışırıq. Hazırda növbəti belə tədbirin keçirilməsinə hazırlaşırıq. Dekabr ayının əvvəllərində Bakıda BDİ-dən *(Beynəlxalq Demokrat İttifaqı)* olan qonaqlarımızın iştirakı ilə "Azad cəmiyyətin prinsipləri" mövzusunda beynəlxalq tədbir keçirməyi nəzərdə tutmuşuq. Bununla əlaqədar təşkilati işlərimiz artıq yekunlaşmaq üzrədir".

**Vətəndaş İnkişaf Partiyasının sədri Əli Əliyev isə bildirdi ki, müxalifətin birlik mitinqi ideyasını dəstəkləyir:** "Bildiyimiz kimi, son zamanlar ölkədə qiymət artımı, manatın devalvasiyası müşahidə olunmaqdadır. Hesab edirəm ki, müxalifət qüvvələri yarana biləcək xalq etirazlarının xaosa çevrilməməsi üçün birləşib dinc formada mitinqlər təşkil etməlidir. Bizim partiya bu mitinqlərin təşkilatçısı olmağa hazırdır.



Partiyanın yaxın dövr üçün gündəminə gəldikdə isə daha çox cari fəaliyyətlə məşğuluq. Çalışırıq təşkilati işlərimizi sahmana salaq. Yeni siyasi dövr qədəm qoyub. Ölkədə yaranan iqtisadi vəziyyət tamamilə fərqli siyasi mənzərə yaratmaqdadır. İnşallah, rayon təşkilatlarımızı siyasi baxımdan fəallaşan cəmiyyətə uyğunlaşdırmağa göstəriş vermişik. Bu işin də təqvimi gedişatı mövcud deyil. Çalışırıq və çalışacağıq prosesin sürətindən geri qalmayaq".

**KXCP sədrinin müavini Xəzər Teyyublu bildirdi ki, mitinqlər normaldır, cəmiyyəti fəallaşdırır üstəgəl bu mitinq birliyə hesablanmalıdır. Belə bir mitinq hamını bir araya gətirə bilər, onda ictimai dəstəyə də sahib ola bilər:** "Bu gün vahid müxalif səngərin yaranması zəruridir. Amma bu mitinqi aldırmaq üçün partiyalar bir yerdə olmağı bacarmalı və heç kəs qıraqda olmamalıdır. Kiçikli-böyüklü bütün partiyalar əsas hədəfi elan eləyib aksiyalar edə bilər. Çünki ölkə çox mühüm məsuliyyətli sayılacaq siyasi durum içindədir. Hamımız üçün dövlətçiliyimizin, suverenliyimizin qorunması əsasdır. Belə ərəfədə siyasi müxalifət vəziyyətə uyğun təşkilatlanmalı və fəaliyyət istiqamətlərini müəyyənləşdirməlidir. KXCP həmişə milli dövlətçilik, birlik maraqlarını üstün tutub. Yaxın aylar üçün planlarımız isə partiyanın təşkilatlanmasının aparılması, strukturların fəaliyyətinə nəzarət, qəbul edilmiş qərarların icrasını həyata keçirməkdir".

**ADP sədri Taliyət Əliyev isə bildirdi ki, müxalif düşərgədə birliyə həmişə ehtiyac olub, bu gün də var. Söhbət bu birliyin indiki halda baş tutub-tutmamasından gedirsə, müxalif siyasi partiyalar arasında indiki münasibət nə vaxta qədər davam edəcəksə, müxalifətin birliyindən danışmaq da çətin olacaq:** "Ona görə də müxalifətin indiki halda birlik mitinqi keçirməsini real hesab etmirəm. ADP-nin isə qarşıdakı 2-3 ay ərzində fəaliyyət planında fərqli bir şey olmayacaq. Çünki ölkədə elə bir siyasi kampaniya və ya seçki yoxdur. Ona görə də partiya cari fəaliyyət planı üzrə fəaliyyət göstərəcək".

❑ **E.SEYİDAĞA**

# Dünya üçün təhlükəli dəyişim: sağ millətçilər hakimiyyətə gəlir

**Dünyanın aparıcı ölkələrində liberalizmə üstünlük verən hakimiyyətləri sağ mərkəzçilər, radikal mövqeli qüvvələr əvəzləməyə başlayıb. Qərbin Hitler Almaniyasının, faşizmin gətirdiyi bəlalardan ibrət dərsi götürmək əvəzinə, keçmişə qayıdaraq İslama qarşı "Səlib yürüşü"nə çağırış edənləri, çeşidli laboratoriyalarda hazırlanan müharibə ssenarilərinin qurbanları olan miqrantlara qapıları bağlayanları hakimiyyət olimpinə seçməsi məyusluq və acı təəccüb yaradır.**

Lakin fakt budur ki, İngiltərə, ABŞ nümunəsindən sonra dünyanın digər aparıcı dövləti Fransada da analoji proseslər müşahidə olunmaqdadır. Azərbaycandan məsələyə baxış bucaqları isə bir-birindən fərqlənir.

**Politoloq Hikmət Hacızadə bildirdi ki, həqiqətən də bu gün dünyada liberalizmə üstünlük verən hakimiyyətləri sağ mərkəzçilər əvəzləməyə başlayıb:** "Müəyyən mənada liberalizmin geriləməsini görürük. Çox təəssüf olsun ki, vəziyyət belədir. Görünür, tarix bu və ya digər formada təkrarlanır. Keçən belə mərhələdə qatı sağçılar dünya müharibəsinə başladılar. Allaha şükür ki, hələ dünya müharibəsi yoxdur. Hələ ki hər tərəfdən ancaq söyüş eşidilir".

**Ekspertin sözlərinə görə, demək olar ki, hər bir Avropa ölkəsində - Belçikada, Hollandiyada, Avstriyada, Macaristanda, Polşada millətçilərin revanşı gözlənilir:** "Dünya başını itirib. Mümkündür ki, daha ciddi təhlükələrin şahidi olaq. Əsas Qərblə Rusiyanın qarşıdurmasıdır. Bu qarşıdurmanın həlli dünyada çox şeyi dəyişə bilər".

**H.Hacızadə deyir ki, Rusiyanın birinci adamı prezident Putini də millətçilərin siyahısına aid edə bilərik:** "Bu oyunda bir nömrəli oyunçu odur". Ancaq politoloq güman etmir ki, müasir dünyada millətçilərin revanş götürməsinə Rusiya nümunəsi səbəbkar olub: "Rusiya səbəblərin birisidir, başqa səbəblər də var. Qloballaşma, postindustrial düzən və həyat



**Hikmət Hacızadə:** "Keçən belə bir mərhələdə qatı sağçılar dünya müharibəsinə başladılar"



**Elxan Şahinoğlu:** "Məntiqlə "Meksika ilə sərhəddə divar tikəcəyəm" deyən şəxs ABŞ prezidenti seçilməməli idi "

tərzi...Kasib ölkələrlə varlı ölkələr arasında uçurumun dərinləşməsi, emiqrantlar, hiper İnformasiya axını və s. amillər hamısı insanların həyatına, həmçinin şüuruna pis təsir edir, onları rasional düşüncədən yayındırır. Nəticədə lazım olmayan yerlərdə düşmən axtarmağa başlayırlar".

**Bəs Azərbaycan bu vəziyyətə hazırdırmı? Azərbaycanda millətçi kəsim varmı? Onlar qüvvəyə çevrilə bilərmi? H.Hacızadə çox pessimistdir:** "Azərbaycanda nə millətçi kəsim qalıb, nə də demokrat - burada diktaturadır. Amma sağmeyilli diktatura. Odur ki, bizim işimiz "yaş"dır". **Hər bir ölkə millətçilik mərhələsindən keçməlidirmi? Politoloq hesab edir ki, söhbət qatı - ekstremist millətçilikdən gedirsə, yox:** "Ölkələr var ki, bu faciəni yaşamayıblar. Ayrı-ayrı millətçi qruplar və fərdlər hər yerdə var. Bizdə də var. Amma indi hamı zəifdir, liberallar da, millətçilər də..."

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu hesab edir ki, sağ mərkəzçiləri liberalizmə üstünlük verən siyasətçilərdən ayırmaq düzgün deyil:** "Əsl sağ mərkəzçilər də liberal dünyagörüşlü olurlar. Ümumiyyətlə, liberalizm həm sağ, həm də sol cinahda ola bilər. Şəxsən mən sağ mərkəzçi ideoloji baxışı paylaşıram. Ancaq paralel olaraq liberal dəyərlər də mənim üçün əsasdır. Qərb ölkələrində sağ təmayüllü siyasətçilərin hakimiyyətdə solçuları əvəz etməsi əbədi deyil. Bu siklik bir prosesdir. Bir neçə il öncə də sol görüşlü siyasətçilər hakimiyyətdə sağları sıxışdırmışdılar. Sadəcə, Qərb ölkələri miqrant problemi ilə üz-üzədir, iqtisadi vəziyyət ürəkaçan deyil, sosial problemlər dərinləşir. Bütün bu problemlərin həlli mürəkkəbləşdiyinə görə də insanlar bu dəfə sağ təmayülə malik insanları sınamaq istəyirlər". **E.Şahinoğlunun sözlərinə görə, məntiqlə "Meksika ilə sərhəddə divar tikəcəyəm" deyən şəxs demokratik Amerikanın prezidenti seçilməməliydi:** "Bəli, bu şüar liberal dəyərlərdən uzaqdır, irqçilik elementi var. Ancaq ABŞ vətəndaşları məhz bu şüarı dilə gətirən Donald Trampı prezident seçdi. Çünki görünür, amerikalıların əksər hissəsi də ölkələrinə miqrant gəlməsini istəmir, rahat həyatlarını başqaları ilə bölüşməkdə maraqlı deyillər. Halbuki Amerika özü miqrantlar ölkəsidir, amerikalı millət anlayışı yoxdur, yüzillər boyunca ordan-burdan gələnlər bu ölkəni qurublar". **Ekspert qeyd etdi ki, Fransada da hazırkı prezident solçu Fransua Ollandın reytinqi çox aşağıdır:** "Bunun əvəzinə Fransada sağ və millətçi partiya liderlərinin reytinqləri yüksəkdir, yəni bu iki cərəyandan birinin lideri prezident seçiləcək. Səbəb yenə yenidir. Fransalılar solçu prezidentin miqrant siyasətini bəyənmir. Ancaq Ollandın reytinqinin aşağı olması tək bununla bağlı deyil. Fransada iqtisadi inkişaf da sezilmir".

**Politoloq bildirdi ki, Amaniyada durum tam tərsinədir:** "Kansler Angella Merkel sağ partiyaların təmsilçisi olmasına baxmayaraq, ölkəsinin qapısını bir milyondan çox qaçqına açdı. Buna görə digər dövlətlərin liderləri onu sərt tənqid etdi. Ancaq Merkel sırf praqmatik maraqlardan çıxış edirdi. Almaniyanın əhalisi qocalır, yeni işçi qüvvəsi lazımdır, bir milyon qaçqının əhəmiyyətli hissəsindən isə fəhlə qüvvəsi kimi istifadə etmək mümkündür".

❑ **Cavid TURAN**

YENİ MÜSAVAT
N 260 (6581) 23 noyabr 2016

# "Ermənistana "İsgəndər"lər ona görə verilib ki..." - Qərb nəşrindən sensasion iddia

"The National İnterst"ə görə, bu sistemlərin düşmən ölkədə peyda olması o deməkdir ki, İrəvan atom silahı yaradır; **amerikalı analitik:** "Ermənistanın ən azından radioaktiv "çirkli bomba" yaratması mümkündür"; Putin erməni müdafiə nazirini Moskvaya çağırdı - motiv...



**Rusiya Güney Qafqazdakı yeganə forpostu Ermənistanı dirçəltməkdə davam edir. Xüsusən də aprel döyüşlərində üzləşdiyi acınacaqlı məğlubiyyətdən sonra Kremlin öz müttəfiqinə yeni və müasir silahlar, o sırada "İsgəndər" operativ-taktiki raket sistemləri və "Smerç"lər verməsi diqqət çəkməyə bilməz.**

Az öncə isə Rusiya prezidenti Vladimir Putinin işğalçı ölkə ilə ortaq hərbi qruplaşma (ordu) yaratmaq barədə sərəncam imzalayıb. Rəsmi məlumatlara görə, bir neçə gündən sonra Ermənistanın müdafiə naziri Viqen Sərkisyan məhz ortaq ordu ilə bağlı sənədi imzalamaq üçün Moskvaya gedəcək. Böyük ehtimalla, onun həmkarı Sergey Şoyqu ilə, Putinin iştirakı ilə nümayişkaranə şəkildə imzalanma mərasimi olacaq.

Beləcə, faktiki iki işğalçı dövlət - Rusiya və Ermənistan arasında hərbi-əməkdaşlıq keyfiyyətcə yeni mərhələyə adlamaq üzrədir - hansı ki, haqlı olaraq ən əvvəl Azərbaycanda narahatlıq doğurmaya bilməz. Çünki əksər yerli və xarici analitiklərə görə, proseslərin bu məcrada inkişafı bölgə və Qarabağ məsələsi üçün yaxşı heç nə vəd eləmir. O səbəbə ki, arxasında Rusiyanın güclü siyasi-hərbi dəstəyini hiss edən İrəvan Qarabağ məsələsində daha güzəştsiz mövqeyə, bütövlükdə regionda isə radikal davranışa köklənəcək - hansı ki, artıq müşahidə olunur.

Halbuki aprel döyüşlərindən sonra öz qarşısında sanballı hərbi güc görmüş Ermənistanın, nəhayət, konstruktiv mövqe tutacağı ehtimalı xeyli artmışdı. Yetərdi ki, Moskva ona azacıq təzyiq eləsin. Ancaq bu qəbildən heç bir təzyiq-təhdid olmadı. Belə qənaət hasil olur ki, Moskva İrəvanın konstruktivliyində son anda maraqlı olmayıb. Tək səbəb də bu ola bilər ki, Kremlin Azərbaycandan istədiyi güzəştlərə rəsmi Bakı razı olmayıb.

*****

Bu arada ABŞ-dakı nüfuzlu "The National İnterst" nəşri Ermənistana "İsgəndər M" raket komplekslərinin verilməsi ilə bağlı sensasion sayılacaq iddia ilə çıxış edib. Nəşr yazıb ki, işğalçı ölkə ərazisində peyda olan "İsgəndər M"lər nüvə silahıdır və bu fakt belə bir ehtimala əsas yaradır ki, Ermənistan bundan istifadə edib atom silahı əldə eləmək imkanlarını artıra bilər.

**Məqalə müəllifi - Corctaun Universitetinin konfliktlərin həlli sahəsi üzrə magistrı Sebastyan Roblin bu xüsusda yazır:** "Nüvə başlıları da daşıya biləcək "İsgəndər" raket komplekslərinin Ermənistana tədarükü faktı, ilk baxışda nə qədər absurd görünsə də, belə düşünməyə əsas verir ki, üç milyonluq əhalisi olan ölkənin nüvə silahı yaratmaq imkanları arta bilər. Bu isə narahatlıq üçün ciddi əsaslar yaradır. Həm də o səbəbə ki, Ermənistanda artıq Metsamor AES-i fəaliyyət göstərir. Bu AES-in personalı müvafiq sahə üzrə hazırlıq keçib. Bundan əlavə, son illər ölkədən qaçaqmalçılıq yolu ilə uran çıxarmağa çalışan böyük sayda ermənininin həbsi də narahatlıq yaradır".

**Nəşr daha sonra Ermənistanın sabiq baş naziri Qrant Baqratyanın aprel döyüşlərindən az sonra - aprelin 29-da verdiyi açıqlamasını yada salaraq yazır:** "Həmin açıqlamadan belə qənaət hasil olur ki, Ermənistan ya artıq nüvə silahına, ya da onun yaradılması imkanlarına malikdir. Ola bilsin, bunlar elə hədə olaraq qalsın. Lakin atom bombası hazırlamaq üçün real səyləri də nəzərdə tuta bilər - baxmayaraq ki, Ermənistan nüvə silahının yayılması haqda müqavilənin iştirakçısıdır. Ən uzağı, Ermənistanın radioaktiv "çirkli bomba" yaratması mümkün görünür - xüsusən də əgər o, bu cür bombanın tətbiqi üçün "İsgəndər"lərdən istifadə eləmək fikrinə düşərsə".

**Amerikalı ekspert hesab edir ki, bu kimi planlar Dağlıq Qarabağ probleminin gələcəkdə nizamlanması üçün yaxşı heç nə vəd eləmir:** "Ötən ay "The World Past"un dərc elədiyi məqaləyə əsasən, Gürcüstana radioaktiv material keçirmək istəyən, lakin həbs olunan ermənilərin sayı son iki ildə artıb. Bu isə nüvə silahının yayılmaması və təhlükəsizlik sahəsi üzrə ABŞ və başqa ölkələrdəki ekspertlərdə həyəcan doğurub. Məsələ həm də ondadır ki, dənizə çıxışı olmayan ermənilər Gürcüstandan Qara dəniz limanlarına çıxış üçün istifadə edirlər - ki, nüvə materiallarını Yaxın Şərqə və ya hansısa başqa yerə aparsınlar. 2014-cü ildən etibarən "The World Past" bu kimi fəaliyyətlə məşğul olan 8 ermənininin həbsi barədə məlumat verib. 2016-cı ilin yanvarında isə "Sezium-137" radioaktiv maddəsini sərhəddən çıxarmaq cəhdinə görə 3 erməni tutulub. 2014-cü ilin avqustunda eyni səbəbdən 2 erməni həbs edilmişdi".

**Məqalədə Metsamor AES haqda da qeydlər var:** "Bu AES 1970-ci illərdə tikilməyə başlayıb. 1988-ci ildə Spitakdakı dağıdıcı zəlzələdən sonra o qapadılıb. Ancaq 1995-ci ildə beynəlxalq etirazlara rəğmən, fəaliyyəti yenidən bərpa edilib və üstəlik, ikinci reaktor istifadəyə verilib. Regionun bütün ekoloqları və alimlərinin fikrincə isə, bölgənin yüksək seysmik aktivliyi Metsamor AES-in istismarını olduqca təhlükəli edir - hətta yeni tip reaktor tikilsə belə..."

*****

Bütün hallarda Azərbaycan əlbəttə ki, düşmən ölkədən qaynaqlanan bu və başqa yeni təhdidləri ciddiyə alır və alacaq. Yaxşı ki, onları neytrallaşdırmaq üçün ölkəmizin imkanları, cavab xarakterli addımlar atmaq potensialı məhdud deyil. Hərbi və siyasi təhlilçilərə görə, bundan ötrü Azərbaycan ilk növbədə nüvə silahı olan yeganə müttəfiqi Pakistanla, habelə İsrail və Türkiyə ilə hərbi və hərbi texniki əməkdaşlığı ən yüksək səviyyəyə qaldırmalı, işğal zonasına yaxın ərazilərdə genişmiqyaslı təlimləri çoxaltmalıdır.

**"Əgər kimsə Rusiyada düşünürsə ki, ermənilərə nümayişkaranə şəkildə hərbi dəstək verməklə Bakını İrəvan və Moskvanın istəyinə uyğun güzəştlərə məcbur eləmək olar, o zaman o, dərindən yanılır", - deyə azərbaycanlı tanınmış politoloqlardan biri Rusiya-Ermənistan hərbi əlaqələrinin mövcud durumunu şərh edərkən bildirib...**

❑ **Analitik xidmət**



# Türkiyə Şanxay Əməkdaşlıq Təşkilatına üzv olacaqmı?

**Toğrul İsmayıl:** "Bu açıqlama Ankaranın yeni birliklərə açıq olduğu, daha manevrli siyasət yürütdüyünü nümayiş etdirir"

**Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın ölkəsinin Şanxay Əməkdaşlıq Təşkilatına üzv olacağı ilə bağlı açıqlama böyük müzakirələrə səbəb olub. Artıq Çin və Rusiyanın rəsmi dairələrindən cavab açıqlamaları gəlib. Xatırladaq ki, ötən həftə Özbəkistan səfərindən geri dönərkən jurnalistlərlə söhbət edən Ərdoğan deyib ki, Türkiyə Avropa Birliyi əvəzinə Şanxay 5-liyinə üzv ola bilər. Onun sözlərinə görə, Rusiya prezidenti də bu fikri dəstəkləyib.**

Türkiyə Şanxay Əməkdaşlıq Təşkilatına "müzakirəçi" qismində 2012-ci ildə qatılıb. Ərdoğanın bu açıqlaması Çindən müsbət qarşılanıb. Çin XİN sözçüsü Qinq Şuanq brifinq zamanı bildirib ki, rəsmi Pekin Türkiyənin müzakirəçi olaraq bu günə qədərki əməkdaşlığından məmnundur. Eyni zamanda əlavə edib ki, Çin ŞƏT üzvü ölkələrlə birlikdə Türkiyənin üzvlük müraciətinin təşkilatın qaydaları əsasında müzakirəsinə başlamaqda maraqlıdır. Rusiya Federasiya Şurasının üzvü Aleksey Puşkov isə twitter hesabında Ərdoğanın ŞƏT üzvlüyünü məntiqli addım adlandırıb.

ŞƏT-in təməlini 1996-cı ildə Çinin liderliyində Rusiya, Qazaxıstan, Tacikistan və Qırğızıstanın da qatıldığı "beşlik" qoyub. Ancaq təşkilatın rəsmən qurulması 2001-ci ildə baş verib. Özbəkistanın da qatılması ilə təşkilata üzv ölkələrin sayı 6-ya çatıb. Qeyd edək ki, hazırda ŞƏT-üz 6 üzv ölkə ilə yanaşı, Əfqanıstan, Belarus, Hindistan, İran, Monqolustan və Pakistandan ibarət 6 müşahidəçi üzv ölkə var. 2017-ci ildə Hindistan və Pakistanın quruma üzv olması gözlənilir. Bundan başqa, müzakirəçi ölkələr də var. Bunlar Azərbaycan, Türkiyə, Kamboca, Nepal, Şri Lanka və Ermənistandır.

ŞƏT ilk mərhələdə, yəni 1996-cı ildə bölgə ölkələri arasında sərhəd problemlərinin həlli, regional təhlükəsizliyin təmin olunması məqsədilə qurulan təşkilat olaraq 1999-cu ildə əməkdaşlıq istiqamətləri sırasına regional təhlükəsizlik, iqtisadi əməkdaşlıq kimi daha geniş sahələri də əlavə edib. Hazırda bu quruma üzv olan ölkələrin ərazisi Avrasiya materikinin 60 faiz ərazilərini özündə birləşdirir. Gələn il isə Pakistan və Hindistan kimi nəhəng ölkələrin qatılması ilə coğrafiya daha da genişlənəcək. Eyni zamanda ŞƏT üzvləri İran, Monqolustan və Türkiyə kimi təşkilatların da bu quruma üzv ola biləcəyini açıqlayıb.

Türkiyənin bu quruma maraq göstərməsi daha çox Rusiya və Çin bazarına, Orta Asiya regionuna çıxış məqsədi daşıyır. Ancaq Türkiyədəki ekspertlərə görə, Ankaranın ŞƏT-ə rəsmi üzvlüyü real deyil. Avropa Birliyi və Qlobal Araşdırmalar Dərnəyinin sədr müavini Can Baydarol BBC-yə açıqlamasında Türkiyənin AB-yə deyil, ŞƏT-ə üzv olmasını mümkünsüz sayıb. Onun fikrincə, Türkiyə AB üzvlüyündə müəyyən bir məsafə qət edib, digər tərəfdən isə ŞƏT iqtisadiyyatdan çox siyasətlə əlaqəli, NATO-ya alternativ bir qurumdur. Ekspertə görə, sözügedən açıqlama ŞƏT-ə üzvlükdən sonra Ərdoğanın Qərb dünyasına bir alternativ axtardığına işarədir. Onun rəyincə, Türkiyə rəhbərliyinin NATO-dan ayrılıb ŞƏT kimi təşkilata üzv olması indi qeyri-realdır. Bu səbəbdən də ekspertin fikrincə, Qərblə çox yaxın bağlara malik, ciddi əməkdaşlığı olan Türkiyənin bütün bu bağları birdən-birə qoparıb ŞƏT kimi əks qütbdə dayanan təşkilata qatılması mümkün deyil.

**TOBB Ekonomi və Texnoloji Universitetinin dosenti Toğrul İsmayıl da o fikirdədir ki, yaxın zamanlarda Türkiyənin mövcud siyasi kursdan imtina etməsi mümkün deyil. Sitat:** "Türkiyə rəhbərliyi daha əvvəl də belə fikirlər səsləndirib. O zaman da Putinin dəstəyi ilə Türkiyə ŞƏT-də müzakirəçi üzv oldu. Amma bir məsələ var ki, bu cür proseslər o qədər də sürətli baş vermir. Bunun üçün ciddi qərarlar alınmalıdır. Rusiyalı general bu gün bəyan etdi ki, Türkiyənin Şanxay Əməkdaşlıq Təşkilatına üzv olması üçün NATO-dan çıxması lazımdır".

**T.İsmayıla görə, bu açıqlama daha çox siyasi xarakterlidir:** "Bu, Türkiyənin yeni birliklərə açıq olduğu, daha manevrli siyasət yürütdüyünü nümayiş etdirir. Yəni Ankara nümayiş etdirir ki, sadəcə, qərbyönlü bloklarda deyil, digər regional təşkilatlarda da fəal olmaq istəyir. Bölgədəki bütün təşkilatlarda olmaq istəyir. Bununla da Türkiyə prezidenti peşəkar siyasətçi kimi həm özünü, həm də Türkiyəni siyasi gündəmdə saxlayır".

❑ **KƏNAN**



# Həyatdır da, Meral

Samir SARI

**Bu yaxşı söhbət olmadı. Heç kəs gözləməzdi ki, o gözəllikdə haqq-hesabın, türkün sözü, aşk macərasının axırı gəlib belə qurtaracaq. (Hərçənd şair hələ 50 il əvvəl deyib ki, "hər aşkın sonunda göz yaşı vardır").**

Söhbət "Təhminə" filminin baş rol ifaçılarının arasındakı münasibətlərdən gedir. Heç kəsə sirr deyil, düz 23 ildir ki, bizim camaatın Qarabağ boyda dərdi ilə yanaşı, bir Təhminə-Zaur, daha dəqiqi, Fəxrəddin-Meral dərdi də var. 1993-dən bəri millətin bir yarısı, xüsusilə də gənclər kəsimi o nakam eşq söhbətini ürəyinə salmışdı, hamı istəyirdi ki, o macəra bitməsin, hansısa şəkildə davam etsin.

Budur, Meral xanım elə bir açıqlama verib ki, ilişkinin istiqaməti dəyişib, qara sevdadan uğursuz sənət layihəsinə, ordan da alıb-aldatma söhbətinə dönüb.

Heç demə, 3-4 il əvvəl "Təhminə" rolunun ifaçısı Meral Konratı Bakıya dəvət ediblər ki, bəs "Təhminə-2" filmini çəkirik. O da zamanında "Təhminə" filmindən o qədər duyğulanıb, təsirlənibmiş ki, ləngimədən İstanbuldan Bakıya gəlib. Ancaq xanımı burada Zükfiyyə Xanbabayevanın klipinə çəkiblər və deyiblər ki, bu, hələ filmin tanıtımıdır, "Təhminə-2" çəkiləndə xəbər verəcəyik. Meral xanım qayıdıb İstanbula, bir müddət gözləyib, görüb buna zəng eləyən yoxdur, götürüb öz "Zaur"una, yəni Fəxrəddin Manafova zəng edib ki, film nə oldu. Onu yenə tovlayıb, yola veriblər. Nəhayət, İstanbulda bir azərbaycanlı təsadüfən işin üstünü açıb, Meral Konrada deyib ki, Azərbaycanda çəkdirdiyini klipə baxdım, əladır. Sənətçi xanım deyib, nə klip, nə zad. Sonra özü də girib Youtube saytına baxıb ki, azərbaycanlılar bunu, türkün sözü, dolandırıblar, film əvəzinə klipə çəkiblər.

İndi aktrisa öz keçmiş tərəf-müqabilindən və müğənni Zülfiyyə Xanbabayevadan üzr gözləyir, deyir, çəkilməyən film bir yana, qonorarı verilməyən klip o biri yana, onu aldadıb Bakıya gətirənlər üzr istəməlidirlər.

Doğrusu, hörmətli aktyorumuzdan və hörmətli müğənnimizdən elə bir hərəkət gözləmək olmazdı. İkisi də ölkəmizdə həm populyar adamlardır, həm də hörmət-izzət sahibidirlər. Bəs necə olub ki, Meralı aldadıblar, klipə çəkib pulunu verməyiblər, hələ üstəlik, yalandan ümid veriblər? O da neçə vaxtdır ki, oturub "Təhminə - 2"-nin çəkiləcəyi günü gözləyir, deyir, o qədər filmin 2-ci, 3-cü hissələri çəkilib ki, bu nədən olmasın.

Yəni prinispcə, "Təhminə -2"-nin çəkilməsi mümkün idi. Görünür, belə bir ideya olub, sadəcə, hansısa səbəblərdən gerçəkləşdirilməsi alınmayıb. Əslində maraqlı olardı, 20 ildən sonra artıq yaşlaşmış Təhminəylə Zaur qarşılaşır, gücləri çatdığı qədər yeni macəra yaşayırlar. Filmin sonluğunu isə sosial şəbəkə istifadəçilərinin rəyini öyrənərək quraşdırmaq olardı. İki variant verirsən (1. "Təhminə və Zauru yenidən bədbəxt etmək"; 2. "Təhminə və Zauru qovuşdurmaq") , yazırsan ki, dostlar, bu iki variantdan birini "like" edin, filmin epiloqu ürəyinizcə olsun, sonra FB-də göz yaşları damla-damla axıb sel olmasın.

Yəqin ki, ikinci variant seçilərdi. Heç olmasa, millətin iki böyük dərdindən biri həll edilmiş olardı.

Bəlkə də "Təhminə -2" filminin çəkilməməsinin səbəbi maliyyə çatışmazlığı olub. Arada devalvasiya-filan oldu axı. Başımız I Avropa Oyunlarına qarışdı, xərc çox çıxdı. Yoxsa bizim sənətçilər həmin layihəni gerçəkləşdirər, ən azı Meral xanımın qonorarını kəsməz, klipin sponsorlarından alıb verərdilər.

O klip çəkilən vaxt Zülfiyyə xanımı tez-tez telekanallarda göstərirdilər. Elə çıxırdı ki, xanım pul-para sarıdan korluğu yoxdur. Hətta bir ara dedilər ki, bir bankir dostu müğənniyə təyyarə-filan da bağışlayıb. Amma sonra bilinmədi ki, bu, real söhbətdir, yoxsa o da hansısa klipin ssenarisindəndir.

Hər halda çox ayıb oldu. Rusiyada bizi onsuz da "atanşik" kimi tanıyırdılar, bir qardaş Türkiyə qalmışdı, orda da adımız dolandırıcı kimi çıxsa, ta heç zad. Nə qədər gec deyil, gərək Fəxrəddin bəy zəng edib Meral Konrada desin: "Həyatdır da, Meral".

# Ankara və Vaşinqton arasında gərginliyin artacağı barədə qorxunc proqnoz

## Politoloq: "Obama dövründən fərqli olaraq, Tramp dövründə ABŞ Türkiyədəki proseslərə fəal müdaxilə edə bilər"

**Keçən ilin noyabrında baş verən təyyarə olayının ardınca Türkiyə-Rusiya münasibətlərində yaşanan gərginliyin yerini normal əlaqələr əvəzlədikcə Qərbin Ankaraya qarşı təzyiqləri də artan xətt üzrə davam edir.**

Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın ölkəsinin Avropa Birliyinə üzvlük məsələsi ilə bağlı son qərarını açıqlaması üçün vaxt verməsi, paralel şəkildə Şanxay Əməkdaşlıq Təşkilatına üzv olmaq niyyətini növbəti dəfə dilə gətirməsi ABŞ və Avropanı təbii ki, qıcıqlandıracaq. Ancaq aradakı problemlər təkcə Qərbin sanksiyalara məruz qoyduğu Rusiya ilə əlaqələrin qurulması ilə bağlı deyil. Ankara israrla Fətullah Gülənin təhvil verilməsini istəyir, Vaşinqton isə buna hazırlıqlı görünmür. Bunun ardınca Türkiyə rəhbərliyinin İŞİD-i silahlandıranlar sırasında "dostlarımız var" deməsi şübhəsiz ki, Qərbə ciddi mesajdır. Ancaq ortaya çıxan yeni faktlar Türkiyə və ABŞ arasındakı ziddiyyətlərin yeni prezident Donald Tramp dövründə azalmayacağını deməyə imkan verir.

Türkiyə televiziyaları son günlərdə ilginc bir məsələyə diqqət çəkirlər. Söhbət 15 iyulda, Türkiyədə dövlət çevrilişinə cəhd zamanı çəkilən videodan gedir. Türkiyədə çevriliş cəhdi baş verdiyi saatlarda Trampın müşaviri general Maykl Flinn Respublikaçılar Partiyasının qurultayında çıxış edib. Bildirib ki, türk ordusu illərdir Ərdoğanın ölkəni dini dövlətə çevirməsinə müqavimət göstərir və onlar buna - yəni Ərdoğanı devirməyə - nail olsalar, Türkiyənin NATO-ya bağlı qalacağına, dünyəvi dövləti qoruyacaqlarına söz verir. Bu zaman zaldan alqış sədaları gəlir və Flinn "bəli, bu alqışlanacaq hərəkətdir" deyir. Daha sonra isə o, Misirdə Məhəmməd Mursini devirən general Sisini tərifləyir. Türkiyə çevriliş cəhdində olanları və FETÖ-nü dəstəkləyənləri qəti şəkildə bağışlamaq niyyətində deyil. Belə olan təqdirdə, iki NATO dövlətinin münasibətlərindəki sonrakı gedişat maraq doğurur.

**Politoloq Şahin Cəfərli bu barədə "Yeni Müsavat"a açıqlamasında əvvəlcə bildirdi ki, Donald Trampın prezident seçkilərindəki gözlənilməz qələbəsinin ABŞ-ın qlobal siyasətindən narazı olan ölkələrdə sevinclə qarşılandığı sirr deyil:** "Hətta biz Rusiya Dövlət Dumasında analoqu olmayan hadisənin - ABŞ-dakı seçkinin nəticələrinin rusiyalı deputatlar tərəfindən ayaqda alqışlanmasının şahidi olduq. Trampın zəfərindən məmnunluq duyan ölkələrdən biri də Türkiyə idi. Məlumdur ki, son aylarda istər Vaşinqtonun Suriyada PYD-yə dəstəyi, istərsə də Fətullah Gülən məsələsi ilə əlaqədar Türkiyə-ABŞ münasibətlərində soyuqluq yaranıb. Hillari Klinton prezident seçilsə, Obama administrasiyasının və ümumilikdə dövlətin ənənəvi siyasətini davam etdirəcəkdi, üstəlik onun seçkiqabağı dövrdə Suriyadakı kürd qruplaşmasına açıq dəstəyini ifadə etməsi Ankarada narahatlıqla qarşılanmışdı. Digər tərəfdən, Fətullah Gülənə yaxın bəzi biznes qurumlarının və iş adamlarının H.Kintonun kampaniyasına maddi dəstək verməsi barədə xəbərlər yayılmışdı, bu da öz növbəsində Türkiyə hökumətinin narahatlığını artıran amillərdən biri idi. Bu səbəblə, Trampın qələbəsi Türkiyə rəsmi dairələrində və iqtidar mediasında pozitiv tonda qarşılandı. Prezident Ərdoğan Trampa telefon açıb, onu təbrik edən ilk əcnəbi dövlət başçılarından biri oldu. Seçkidən bir neçə gün sonra D.Trampın yaxın çevrəsinə daxil olan general Maykl Flinnin açıqlamaları isə Ankarada optimizmi daha da artırdı. General Flinn Fətullah Gülənin Türkiyəyə təhvil verilməsinə tərəfdar olduğunu bildirmişdi". **Lakin Ş.Cəfərli qeyd etdi ki, günlər keçdikcə və Tramp administrasiyasında, yeni hökumətdə yer alacaq şəxslərin adları açıqlandıqca fərqli mənzərə yarandı:** "Məlum oldu ki, Ankaradakı nikbinliyə o qədər də əsas yoxdur. Elə yuxarıda adı çəkilən general Flinnin yeni yayılan videosu da bunu göstərir. Pentaqonun kəşfiyyat idarəsinin rəhbəri olmuş Maykl Flinn prezident Trampın milli təhlükəsizlik məsələləri üzrə müşaviri vəzifəsində çalışacaq və ABŞ-ın xarici siyasətinin, o cümlədən təhlükəsizlik siyasətinin müəyyənləşməsində söz sahibi olacaq. M.Flinnin "Döyüş meydanı" adlı kitabı var, orada generalın hansı dünyagörüşə sahib olduğu görünür. O, ABŞ üçün 1 saylı təhdid saydığı radikal islamla total müharibəyə çağırır. Yayılan videodan da göründüyü kimi, Türkiyənin son illər dünyəvilikdən uzaqlaşaraq mühafizəkarlaşması Flinn və onun kimi düşünən amerikalı dövlət adamlarında ciddi narahatlıq yaradıb. Flinn və digər respublikaçılar Türkiyəni önəmli müttəfiq sayırlar, lakin son illər bu ölkənin dünyəvilikdən bir qədər uzaqlaşaraq İslama meyllənməsi onlarda narahatlıq yaradıb. Flinn məhz bu səbəblə 15 iyulda hərbi çevriliş cəhdinə rəğbətini gizlətməyib".

**Politoloq Tramp komandasında Flinn kimi digər kadrların olduğunu da vurğuladı:** "Donald Tramp tərəfindən baş prokuror-ədliyyə naziri vəzifəsinə təqdim edilən senator Ceff Seşns da bənzər düşüncələrə sahib-



Donald Tramp

dir. C. Seşns seçki ərəfəsində FOX TV-yə müsahibəsində aşağıdakı fikirləri söyləyib: "Türkiyə islamçı bir ideologiyaya meyllənir, bu, çox təhlükəlidir və ümid edirəm ki, davam etməz. Obama hökuməti bu meyllənməni dayandırmaq üçün heç nə etmədi, bu isə problem yaradır. Türkiyə böyük müttəfiqdir və onun yanlış istiqamətdə hərəkət etməsi çox problemlidir". ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin (CİA) rəhbəri vəzifəsinə namizədliyi irəli sürülən konqresmen Mayk Pompeo isə daha sərt mövqedədir. O, Türkiyədəki hazırkı idarəçiliyi "İrandan fərqlənməyən totalitar İslam diktaturası" adlandırıb. Flinn, Seşns və Pompeonun yuxarıdakı fikirlərindən də aydın göründüyü kimi, Trampın yaxın ətrafındakı şəxslər Türkiyənin hazırkı siyasətindən narazı və narahatdır, hətta onlar bu siyasəti dayandırmaq lazım olduğunu düşünürlər. Hələ ki dövlət katibi və Pentaqon rəhbəri kimi çox mühüm postlara kimlərin təyin olunacağı bəlli deyil, lakin məlumdur ki, onlar da eyni zehniyyətin daşıyıcıları olacaq. Bütün bunları nəzərə alaraq belə bir fikir yürütmək olar ki, Obama dövründən fərqli olaraq, Tramp dövründə ABŞ Türkiyədəki proseslərə fəal müdaxilə edə bilər. Bu, baş verərsə, iki ölkə arasında gərginlik daha da artacaq. Üstəlik, Suriyada PYD-yə dəstək böyük ehtimalla, Tramp dövründə də davam edəcək".

❑ Cavid TURAN

YENİ MÜSAVAT
N 260 (6581) 23 noyabr 2016

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

**Adətən il sonu növbəti il üçün hansısa planlar qurulur, layihələr hazırlanır, görülən işlərə yekun vurulur. Əfsus ki, Dağlıq Qarabağ ixtilafı o qəbil məsələlərdəndir ki, artıq neçənci ildir nə onun il-sonu hansısa pozitiv yekunu olur, nə də hansısa nəticələrdən danışmaq və növbəti ilə hansısa plandan danışmaq mümkün olur.**






# Yeni ilə yeni həmsədrlərlə - təzə vasitəçilər "köhnə yükü" qaldıra biləcəkmi?

## İki həmsədr dəyişdi; Qarabağ düyününü aça biləcək vasitəçilər nə vaxt gələcək - bu sual növbəti ildə də öz aktuallığını saxlayacaq; **amerikalı ekspert:** "Rusiyaya görə İrəvan da Qərbin təzyiqləri ilə üzləşəcək, Ermənistan hələ anlamır ki, hansı qəliz situasiyaya düşüb"

Əsas səbəb barədə dönə-dönə yazmışıq. Söhbət həm Rusiya amilinin davam edən əngəlləyici rolundan, həm də ümumən ATƏT-in Minsk Qrupunun dişsiz vasitəçiliyindən və onun həmsədrlərinin hətta işğalçı Ermənistana gizli himayəsindən gedir. Bu üzdəndir ki, Minsk Qrupunun mövcud olduğu 24 ildə ona neçə-neçə həmsədr gəlib-getsə də, nəticə olmayıb. Əlbəttə ki, sonsuzadək belə davam edə bilməz. Bəs çıxış yolu?

Bəzi ekspertlər, məsələn, tanınmış alman politoloqu, professor Vilfrid Furman ehtimal edir ki, Dağlıq Qarabağ konflikti yəqin ki, Minsk Qrupu çərçivəsində deyil, həmin çərçivədən kənarda həllini tapacaq. Furman bununla bağlı üç mümkün ssenari təsvir edib - hansılar ki, mövcud "nə hərb, nə də sülh" vəziyyətindəki bəzi "tabu"ların sindırılması anlamına da gələ bilər. Maraqlıdır ki, bu ssenarinin hər üçündə Minsk Qrupunun iştirakı iqnor edilir, əsas yük ABŞ və Rusiyanın üzərinə qoyulur, daha doğrusu, bu iki dövlətin nizamlamaya görə qarant rolu önə çəkilir.

*****

**Bu arada Minsk Qrupunun amerikalı həmsədri Ceyms Uorlikin həmsədrlikdən getməyə hazırlaşdığı məlum olub. Bu barədə diplomat özünün twitter hesabında yazıb. O, həmsədr kimi səlahiyyətlərinin bu il dekabrın 31-də başa çatacağını bildirib.** "Mənim üçün 30 il Dövlət Departamentində xidmət etmək böyük şərəfdir", - deyə C.Urolik qeyd edib. O, həmçinin bildirib ki, Rusiyanın ən böyük və nüfuzlu hüquq firmalarından olan "Yeqorov, Puqinski, Afanasyev və tərəfdaşları" şirkətinin tərəfdaşı olacaq.

Uorlik Minsk Qrupunun amerikalı həmsədrləri arasında ən təcrübəli diplomat sayılırdı. Onun Bosniya (Balkan) böhranının yoluna qoyulmasında müstəsna rolu olub. Lakin Dağlıq Qarabağ məsələsində o da gücsüz oldu. Çünki Rusiya amili imkan vermədi. Təbii ki, balkanlardan fərqli olaraq, Güney Qafqaza Kremlin təsir imkanları hələ çox güclüdür. Üstəlik, Rusiyanın təcavüzkar Ermənistanın qismində bölgədə hərbi forpostu var.

Qeyd edək ki, az öncə Minsk Qrupunun Fransadan olan həmsədri rotasiya qaydasında dəyişdirilib. Yeni həmsədr də amerikalı təzə həmkarı kimi yeni ildən öz missiyasına başlayacaq. Beləliklə, Minsk Qrupu yeni ilə faktiki, yeni həmsədrlərlə gedir. Bəs bu nəyisə pozitivə doğru dəyişəcəkmi?

Təəssüf ki, indiyədək olan təcrübə suala pozitiv cavab vermək şansı qoymur. O zaman doğrudan da belə bir sual ortaya çıxır ki, bəlkə bu formata heç ehtiyac yoxdur? Axı, bütün hallarda ortada Rusiya faktoru var. Yeni öncə bu amil ciddiyə alınmalı və neytral, konstruktiv hala gətirilməlidir.

*****

**"ATƏT-in Minsk Qrupunun həmsədri olan Rusiya böyük bir dövlətdir". Bunu Bakıda jurnalistlərə açıqlamasında Türkiyə prezidentinin baş məsləhətçisi Yalçın Topçu deyib.** "Əgər Rusiya kimi böyük dövlət terrorçu və işğalçı Ermənistana dəstəyini dayandırarsa və Qarabağda haqlı olan tərəfin yanında durarsa, bundan çox şey qazanar. Bu halda Rusiya 1 milyard 700 milyonluq müsəlmanın ürəyini, könlünü qazanmış olar. Rusiyanın belə bir ağılda olduğuna inanıram" - Topçu qeyd edib.

**Türkiyə rəsmisi onun da deyib ki, Rusiya prezidenti Vladimir Putin böyük dövlət adamıdır:** "Bunu görürəm, bilirəm. İnşallah, qarşıdakı günlərdə Rusiya qarabağlı, şuşalı uşaqların atalarının, analarının torpaqlarına dönməsinə səbəb olan addımlar atar, Ermənistanın haqsız işğalına tezliklə son qoyular".

Lakin hələ ki Rusiya rəhbərliyində bu iradəni təəssüflər olsun ki, görmürük. Krımın ilhaqından sonra gərginləşən ABŞ-Rusiya münasibətləri və Moskvanı son vaxtlar işğalçı ölkəni daha da silahlandırması, onunla ortaq hərbi qruplaşma yaratması fonunda isə belə istək-məram ümumiyyətlə, görünmür.

**Ciddi siyasi analitiklər proseslərin bu cür gedişini işğalçı Ermənistana da yaxşı heç nə vəd etmədiyi qənaətindədir. Məsələn, ABŞ Milli Maraqlar Mərkəzinin icraçı direktoru Pol Sandersə görə, NATO və ABŞ Rusiya müqavimət göstərsə də, hər zaman Cənubi Qafqazda mövcudluğunu saxlayacaq.**

"Əvvəllər bu regionda gərgin mübarizələr müşahidə edilirdi, indi isə Qərb çalışır ki, Rusiya ilə qarşıdurmaya getməsin və Şərqi Avropa ölkələrinin NATO-ya davamlı inteqrasiyasını təmin etsin. Hazırda ABŞ Şərqi Avropanın məsuliyyətini Avropa Birliyinin üzərinə atıb və kənarda qalaraq Rusiya planlarının bu regionlarda necə məhv olmasını gözləyir. Avropa Birliyi Şərqi Avropa ölkələrinin inteqrasiyası üçün effektiv mexanizm idi, amma Ermənistandakı hadisələr nümayiş etdirdi ki, ABŞ olmasa, Rusiya bu proseslərdə istənilən avantüra, təzyiq və şantaja hazırdır. Ermənistan hələ anlamır ki, hansı çətin situasiya düşüb. İrəvanı cəzalandırmayacaqlar, sadəcə, üstünlüyü digər region ölkələrinə verməklə Ermənistana məhəl qoymayacaqlar. Qərb ictimaiyyəti Ermənistanı Qarabağ probleminə böyük diqqət ayırmayaraq, qoruyurdu. İndi isə Rusiyaya qarşı təzyiq siyasəti artacaq və Qarabağ məsələsi də ona qarşı istifadə edilən rıçaqlardan biri olacaq. Buna görə Ermənistan əziyyət çəkəcək" - analitik qeyd edib.

*****

**"Rusiya yenə aktiv şəkildə regionda nüfuz sahibi olmaq üçün əlindən gələni edir". Bu sözləri isə axar.az-a politoloq Arzu Nağıyev deyib. Ekspert danışıqlar dayansa da, son zamanlar Dağlıq Qarabağ məsələsi ətrafında gedən bəzi siyasi proseslərə diqqət çəkib:** "Azərbaycan prezidenti İlham Əliyevin Dağlıq Qarabağla bağlı təkliflərindən sonra erməni tərəfi Bakının mesajına konkret bir cavab verməli idi. Məhz təlimlər keçən müddətdə Ali Baş Komandan növbəti dəfə Lələtəpədən münaqişənin həlli istiqamətində bir sıra bəyanatlarla çıxış etdi. Fikir verin, çox keçmədən Rusiyanın məxfi kanalı Sərkisyandan müsahibə götürdü. Bu müsahibə əslində bir sıra mətləblərdən xəbər verir. Yəni artıq Rusiya bu istiqamətdə müvafiq addımlar atmağa başlayır. Paralel olaraq, ermənilərin Azərbaycana səfəri də Ermənistana mühüm bir mesajdır ki, Qarabağ məsələsini nəyin bahasına olursa-olsun həll etmək lazımdır. Ən başlıcası, Azərbaycanın ərazi bütövlüyünü tanısa da, səhra komandiri Sərkisyanın problemin həllinin ya Dağlıq Qarabağın Ermənistana birləşməsində, ya da müstəqilliyin tanınmasında olduğunu söyləməsi daxili auditoriyaya hesablanmış bir addım idi. Ümumiyyətlə, bu kimi siyasi məsələlər Dağlıq Qarabağ münaqişəsində müsbət istiqamətdə atılmalı addımlar üçün verilən mesajlardır. Bundan sonra danışıqlar naminə danışıqların özü belə, müsbət hal deyil. Azərbaycan yalnız ərazi bütövlüyü çərçivəsində istənilən danışıqlara hazırdır. Bu şərtlə ki, ermənilər işğalçı qüvvələrini ərazilərimizdən tez bir vaxtda çıxarmalıdırlar. Bundan sonra isə mərhələli şəkildə digər məsələlərə qayıda bilərik".

Beləcə, Qarabağ problemi Ermənistan və Rusiyanın qeyri-konstruktivliyi ucbatından növbəti ilə daha qəlizləşmiş şəkildə təhvil verilməkdədir. Yeni həmsədrlər üçün məhz belə bir ağır miras saxlanılır. Nəzərə alsaq ki, yanvarın 1-dən fəaliyyətə başlayacaq təzə vasitəçilər hələ bir müddət "vəziyyətlə tanış olmalı" olacaqlar, o zaman Minsk Qrupu həmsədrlərindən tezliklə hansısa pozitiv təşəbbüs gözləməyə dəymir - əgər ümumiyyətlə, belə bir təşəbbüs olacaqsa.

**"AST Telman" ləqəbli azərbaycanlı iş adamı, bir müddətdir müflis olan Telman İsmayılov yenidən gündəmə gəlib. Əgər zaman-zaman "AST Telman" maliyyə problemləri və müflis olması ilə bağlı daha çox gündəmə gəlirdisə, indi də qardaşının adının qətl işində hallanması ilə əlaqədar barəsində söz açılmağa başlanıb.**

# Qardaşının həbsi ilə yenidən gündəmə gələn "AST Telman"ın şəxsi və biznes həyatı - haradan-haraya...

## Azərbaycanlı oliqarxın çöküşünə nə səbəb oldu; yəhudi əsilli milyarderi bitirən Putin qərarı

"Qafqazinfo" Rusiya KİV-nə istinadən xəbər verir ki, AST Telmanın qardaşı Rafiq İsmayılov həbs edilib. O, bu ilin mayında paytaxt biznesmenlərinin güllələnməsində təqsirli bilinir. Hüquq-mühafizə orqanları İsmayılovu ticarət komplekslərinin sahibi Vladimir Savkin və "Lublino motors"un təsisçi Yuri Brilevin qətlində şübhəli hesab edir. İsmayılov və onunla əlbir olan Mehman Kərimova "iki və daha artıq şəxsin öldürülməsi" maddəsi ilə ittiham irəli sürülüb. Bu hadisə ilə bağlı T.İsmayılovun bir qardaşının da adı hallanmır. Belə ki, iki biznesmeni güllələyən killerin Telman İsmayılovun digər qardaşı Vaqif İsmayılovun evində gizləndiyi məlum olub. Bu da ondan xəbər verir ki, qarşıdakı günlərdə V.İsmayılov da məsuliyyətə cəlb oluna bilər.

R.İsmayılov ittihamı qəbul etməsə də, istintaq killer M.Kərimovun qətl törədilən yerə İsmayılov tərəfindən gətirildiyini sübuta yetirib. Ehtimala görə, Vladimir Savkin R.İsmayılovla arasındakı sığorta və maliyyə mübahisəsinə görə öldürülüb. "Lublino motors"un təsisçi Yuri Brilevin isə təsadüfi qurban olduğu güman edilir.

Hər iki iş adamının qətli ilə bağlı yeni iddialar irəli sürülür. İstintaqın versiyasına görə, qətllərə "AST Telman"ın qardaşının Vladimir Savkinə 5,5 milyon dollar borcu olması səbəb olub. Savkinin qohumları bildirib ki, R.İsmayılovla V.Savkin iri biznesin şəriki olublar və biznesin satışından sonra R.İsmayılov bütün pulları özünə götürüb.

Heç şübhəsiz ki, 6 ay öncə baş vermiş hadisənin yenidən gündəmə gəlməsinə səbəb "AST Telman" faktorudur. Bu hadisə onu göstərir ki, adı tez-tez dəbdəbəli məclislər, ziyafətlər təşkil etməkdə, dünya şöhrətli müğənnilərlə əylənməkdə hallanan azərbaycanlı oliqarx bundan sonra daha çox bu tipli hadisələrlə gündəmə gələcək. Çünki müflis olması onu indiyə qədər məşhur etdiklərindən məhrum edib. Artıq dünyada da "AST Telman" keçmiş milyarder kimi qəbul edilir. Təkcə bir il öncə dünyaca məşhur "Forbes" jurnalının rus versiyası Rusiyanın 2015-ci il üzrə varlı iş adamlarının seçimini etmiş və orada T.İsmayılov jurnalın "ilin fiaskosu" bölümündə səsverməyə çıxarılmışdı.

"AST Telman" kimi şəxslərin həyatı, qazandıqları uğurlar və itirdikləri daim ictimaiyyətin marağında olur. Bunları nəzərə alaraq, qısa şəkildə T.İsmayılovun 60 yaşına qədər keçdiyi həyat yolunu oxucularımıza təqdim edirik.

T.İsmayılov 1956-cı ildə Göyçayda dünyaya göz açıb. 12 uşaqlı ailənin 10-cu övladı olan AST Telmanın ailəsi uzun illər orada yaşayıb. 1970-ci ilin əvvəllərində valideynləri ilə Bakıya köçüblər. 1973-1976-cı illər ərzində o, Xalq Təsərrüfatı İnstitutunda *(hazırkı İqtisadiyyat Universiteti)* təhsil alıb. Universitetin birinci kursunda oxuyarkən mağaza sahibi olur. Orduda xidmət etdikdən sonra isə təhsilini Moskva Xalq Təsərrüfatı İnstitutunda davam etdirib. Bu ali məktəbi 1980-ci ildə başa vurub. 80-ci illərdə İsmayılov Ticarət Nazirliyində iqtisadçı vəzifəsində çalışıb.

Keçmiş milyarderin atası Mərdan kişi həmin vaxtlar Göyçay bazarında parça mağazasında işləyib. Hələ o dövrdə imkanlı və çoxlu qızıla sahib olduğundan ona "Lələ" ləqəbi verilib. Ailənin yaşadığı ev isə elə o illərdə rayon sakini Vidadi Babayevin ailəsi tərəfindən satın alınıb. "AST Telman"ın qardaşlarından ikisi dünyadan köçüb. Qardaşları ilə bərabər atası Mərdan kişi və anası Pəri xanımın məzarları da Moskvadadır. Digər bacı və qardaşları da Moskvaətrafı vilayətlərdə yaşayırlar. Məşhur biznesmenin həyat yoldaşı isə Quba rayonundandır. Onların Ələkbər və Sərxan adlı iki övladı var.





1989-cu ildə "AST" şirkətini qurur. "AST" qrupunun illik dövriyyəsi vaxtilə 2 milyard dollara bərabər olub. Bundan öncə Şərqi Avropanın ən iri ticarət meydanı hesab olunan və 2009-cu ildə bağlanan Çerkizov bazarı da həmin qrupa məxsus olub.

2009-cu ildə "AST Telman" Türkiyənin Antalya şəhərində atasının adına 7 ulduzlu "Mardan Palace" adlı lüks hotel açıb. 2013-cü il üçün "Forbes" jurnalının məlumatlarına əsasən, Telman İsmayılovun sərvəti $0,75 milyard dollar göstərilib. Daha sonrakı illərdə isə "AST Telman" iflasa uğrayıb.

Milyonçu atasının adını daşıyan lüks hoteli həqiqi dəyərindən çox aşağı qiymətə, 130 milyon dollara satıb. Halbuki onun tikintisi ona 10 qat baha başa gəlmişdi. Satışdan əldə olunan gəlirlərlə biznesmen köhnə borclarını bağlamağa çalışıb.

"AST Telman"ın hobbisi qiymətli saat yığmaqdır. Deyilənlərə görə, onun kolleksiyasında təxminən 2 mindən çox qiymətli saat var. Müflis olduqdan sonra bu saatların taleyi məlum deyil.

Keçmiş milyarderin biznes həyatına da nəzər salaq.

Bizneslə hələ uşaq yaşlarından məşğul olmağa başlayıb. Əvvəlcə Göyçayda və Bakıda parça mağazası olan atasına kömək edib, daha sonra şəhərdə açılan ilk kommersiya mağazasını idarə edib. O, biznesini kütləvi istehlak malları üzərindən qurmağa başlayıb. Sonra Moskvadakı Plexanov adına İnstituta oxumağa gedib və orada məskunlaşıb.

İsmayılov Moskvada "Mosqorispolkom"un sədrinin birinci müavini, kooperativ və fərdi əmək fəaliyyəti üzrə şəhər komissiyasının sədri Yuri Lujkovla və həmin komissiyanın katibi, Lujkovun arvadı Yelena Baturina ilə tanış olub. O, 1989-cu ildə "AST" şirkətlər qrupunu təsis edəndə, artıq Lujkovla dostluq münasibətləri yaratmışdı.

2009-cu ildə "AST Telman" ilk dəfə Rusiyanın ən zəngin biznesmenlərinin siyahısına düşür. "Forbes" həmin vaxt üçün onun sərvətini 600 milyon dollar qiymətləndirib. Azərbaycanlı oliqarxın "AST" qrupu biznesin müxtəlif sahələri ilə məşğul olsa da onun əsas gəlir mənbəyi Çerkizov bazarı idi. "AST" qrupu 200 hektardan çox ərazisi olan nəhəng bazarı - narkotiklərdən tutmuş saxta mallara qədər hər şeyin satıldığı "tolkuçka"ya nəzarət edirdi. Çerkizov bazarını dəfələrlə bağlamaq istəyiblər. Prokurorluq bazarın yerləşdiyi ərazinin icarəyə verilməsi barədə müqavilənin pozulmasına dair iddianı dəfələrlə udub, ancaq bazar işləməkdə davam edib.

Ancaq 2009-cu il iyunun 1-də o vaxtkı baş nazir Vladimir Putin hökumətin iclasında gömrükçüləri sərt tənqid edəndən sonra vəziyyət dəyişdi. 2009-cu il iyunun sonunda Çerkizov bazarı sanitar normaların pozulmasına görə müvəqqəti bağlandı. Daha sonra Federal Miqrasiya Xidməti bazarda yüzlərlə qeyri-leqal miqrant aşkar etdi. Bazarın ərazisinin icarə müqaviləsi ləğv olundu, binası söküldü və bununla da MDB-nin ən böyük "talkuçka"sının əhvalatı başa çatdı.

Rusiyada azərbaycanlı oliqarxa qarşı qəflətən sərt münasibətin göstərilməsini "AST Telman"ın Antalyada tikdirdiyi lüks hotellə əlaqələndirirlər. Belə ki, 2009-cu ilin mayında İsmayılov Antalyada "Mardan Palace" hotelinin açılışı münasibətilə dəbdəbəli mərasim təşkil etdi. İsmayılov bu bazarın tikintisinə az qala bütün pullarını xərcləmişdi.

Mərasimdə Şeron Stoun və Monika Belluci kimi Hollivud ulduzları çıxış etdilər, bahalı hədiyyələr paylandı, atəşfəşanlıq oldu. İsmayılovun Çerkizov bazarında qazandığı pulları bu cür səs-küylə, əda ilə Türkiyədə xərcləməsi Rusiya rəhbərliyinin səbr kasasını daşıran sonuncu damla idi. "AST Telman"ın bu addımı rus hakim dairələrini qıcıqlandırmaya bilməzdi.

Bundan sonra "AST Telman" çıxa bilməyəcəyi böhrana doğru sürükləndi. Bir müddət bəzi futbol klublarına sponsorluq edən keçmiş milyarder sonunda bunun da nəticəsiz olduğunu gördü. Bununla da on illərlə qurduğu nəhəng biznes beş ilin içərisində çökdü və "AST Telman" müflis olmuş bir biznesmen kimi xatırlanır.

❑ **Cavanşir ABBASLI**

# Neft Fondu avronun ucuzlaşmasından milyonlar itirir

## İl sonu manatla bağlı bədbin proqnozlar: "2 manat..."

**Milli valyuta olan manatın durumu ciddiləşir. Artıq rəsmi məzənnə hər gün rekord təzələyir. Noyabrın 22-də Mərkəzi Bankda Dövlət Neft Fondunun da iştirak etdiyi növbəti ikitərəfli valyuta hərracı keçirilib. Hərrac 1 ABŞ dolları üçün 1,7091 məzənnəsi ilə başlayıb və 1,7146 məzənnəsi ilə yekunlaşıb. Qeyd edək ki, noyabrın 22-də dolların rəsmi məzənnəsi 1,7091 manat olub. Ekspertlər durumun narahatedici olduğunu bildirirlər. Proqnozlar ilin sonuna dolların iki manatı ötəcəyini göstərir.**



**Ekspert Əkrəm Həsənov** məsələ ilə bağlı musavat.com-a açıqlamasında bildirib ki, ilin sonuna bir dollar asanlıqla 1,90 manat həddinə çatacaq: "Ola bilər, vəziyyət daha da pis olsun. Mən daha da pis ola bilər deyərkən, Amerika Birləşmiş Ştatlarında olan vəziyyəti, Federal Ehtiyat Sisteminin faiz artımına gedəcəyini nəzərə alıram. Həmçinin məlum olub ki, yeni seçilmiş Amerika prezidenti ölkənin bütün ərazisində neft hasil etməyə icazə verəcək. Bu da neft təklifini artıra bilər və qiymət düşə bilər. Valyuta kursuna da ciddi təsir edə bilər. Bütün bunlar onsuz da baş verəcək. Tez olsa, dollar iki manatı da ötəcək". Onun sözlərinə görə, ABŞ-ın yeni seçilmiş prezidentinin iqtisadi proqramı inflyasiyanı qaçılmaz edir. İnflyasiya ilə mübarizənin əsas alətlərindən biri faiz dərəcəsinin artırılmasıdır. "Buna görə də FES-in dərəcəni artırması nəinki qaçılmazdır, hətta gözlənildiyindən də çox ola bilər. Həmçinin dekabr artımı ilə iş bitməyəcək. Faiz dərəcəsinin artması da dolların hər yerdə bahalaşması deməkdir. Neft və qazdan asılı ölkələrdə, o cümlədən də Azərbaycanda dollar daha kəskin bahalaşacaq. Bizdə manat da dəyərdən düşür",- deyə ekspert vurğulayıb.

**Ekspert Vüqar Bayramov isə qeyd edib ki, dünya bazarında dollar digər bir sıra əsas valyutalara qarşı möhkəmlənməkdə davam etməkdədir:** "Bu ayın əvvəllərində 1,114 dollara dəyişdirilən avro 1,069-dək dəyər itirib. Bu isə o deməkdir ki, son günlər avro dollara nisbətən 4 faizdən çox ucuzlaşıb. Bu, qısa müddətli dövrdə Avropa pulu üçün ciddi enişdir. FES-in uçot stavkasını artıracağı halda isə dollar əksər valyutalara qarşı ciddi dəyər qazanmaqda davam edəcək. Avro dollara nisbətən son dövrlərin ən aşağı səviyyəsinə düşüb. FES-in uçot stavkasını artıracağı halda, dolların kəskin möhkəmlənəcəyindən ehtiyatlanan bir qisim investorlar valyuta səbətində dəyişiklik edirlər ki, bu da avro təklifini artırır. Bütövlükdə, mövcud qlobal iqtisadi reallıqlar fonunda noyabrın birinci yarısı avro üçün heç də düşərli olmadı. Valyuta ehtiyatlarımızın təxminən 30 faizinin avroda saxlanıldığını nəzər aldıqda Avropa pulunun ucuzlaşması Azərbaycana da təsirsiz ötüşmür. Bu, eyni zamanda dolayısı ilə də olsa, valyuta bazarında dollara tələbi daha da artırır".

**Ekspert Natiq Cəfərli isə bildirib ki, manatı xilas etmək üçün Neft Fondundan gözləntilər də yersizdir:** "Həm hökumət, həm də bəzi vətəndaşlar "Neft Fondunda 32 milyard dollarımız var, bu bizə kömək olacaq",- deyərək özlərinə təsəlli verirlər. Fondda olan vəsaitdən artıq 1 milyard dollar çıxın- Neft Fondu Beynəlxalq Banka 1 milyard dollar depozit qoyub, bank da o vəsaiti öz xarici borclarının qaytarılmasına yönəldib. Yəni o pul artıq yoxdur, bu il bankdan silinən 10 milyard manat kimi o vəsait də bir daha geri qayıtmayacaq. Başqa sözlə, Neft Fondunun rəsmi aktivlərində o 1 milyard dollar, görünür, reallıqda isə artıq yoxdur. Kağız üzərinə yazılmış içiboş aktivdir və Neft Fondunda belə şişirdilmiş başqa aktivlər də var".

❑ **Röya RƏFİYEVA**

YENİ MÜSAVAT
N 260 (6581) 23 noyabr 2016

**Həbsdə olan sabiq general Akif Çovdarovun bacısı çoxsaylı cinayətlərdə və qəddarlıqda günahlandırılan şəxsin "ömründə heç cücə başı da kəsmədiyini" deyib. Bacısının sözlərinə görə, Çovdarov ürəyiyuxa adam olub: "Yaddaşımda axtarsam, cücə başı kəsməyi belə yadıma düşməz, vallah. Anamız ona deyəndə ki, ay Akif, bir cücəni kəs, deyərdi ki, qan tökmək mənlik deyil. Sentimental olub həmişə. Niskilli söhbətlərdə gözləri həmişə dolardı. Qan görəndə pis olardı, yadımdadır".**

# Toyuq başı kəsmək-qəddarlıq, yoxsa...

Ağır cinayətlərdə ittiham olan bir şəxsin heç cücə başı belə kəsə bilməməsi, bir-birinə zidd olan iki vəziyyətin səbəbi doğrudan da maraqlıdır. Ümumiyyətlə, dünya praktikasına da nəzər salsaq, bir sıra cinayətkarlar var ki, onlar əslində insanın ömrünə son verə bilməsinə baxmayaraq, hansısa heyvanın başını kəsməyib. Azərbaycanın bir sıra rayonları, kəndləri var ki, orada belə bir deyim də var ki, "bu adam heç bir toyuq başı da kəsə bilmir, ona qız vermək və ya hansısa ciddi bir işi tapşırmaq olmaz". Yaxud da bir insan qəddarcasına bir iş görəndə onun barəsində "axı o heç qarışqanı da tapdalamazdı, toyuq başı belə kəsməzdi" kimi fikirlər yaranır və onun hərəkətləri hər kəsdə heyrət doğurur. Bir sıra psixoloqlar heyvan başı kəsməyin insanların psixologiyasında qəddarlıq hissi yaratdığını deyirlər. Onlar heyvan kəsimi ilə xüsusi insanların məşğul olmasını tövsiyə edirlər, yəni kim nə vaxt gəldi toyuq, qoyun və ya digər heyvanların başını kəsməməlidir. Bunun üçün xüsusi insanlar və ya aparatlar olmalıdır

Ümumiyyətlə, heyvan başı kəsmək insanda hansı duyğunu yaradır?

**Psixoloq Dəyanət Rzayev** baş kəsməyin cəmiyyətdə kobudluq yaratdığını və bunun normal hal olmadığını dedi: "Bu, mühitdən asılıdır. Uşaq belə mühitdə böyüyür ki, orada qarışqanı belə tapdalamırlar və mərhəmət hissi var. Təbii ki, o uşaq toyuq başı kəsməyi belə bacarmayacaq. Uşaq əgər hansısa kənd yerində böyüyübsə, hansı ki, orada heyvan başı kəsmək normaldır, o uşaq üçün də normal olacaq. Çünki orada mal-qara alveri ilə məşğul olur, ət satırlar. Bu işlə məşğul olan insanlarda toyuğun və ya hansısa heyvanın başını kəsmək hansısa bir hiss, duyğu yaratmır. Qədimlərdə heyvanı, insanı öldürmək normal sayılırdı. Hətta bunu cəngavərlik hesab edirdilər. İndi isə durum bir qədər fərqlidir. Ölkədən də çox şey asılıdır. Hansısa inkişaf etmiş ölkələrdə bir heyvanı yolda yaralı görsələr onu evə gətirir və ya həkimə aparıb xilas edirlər. Bizdə isə bu gün baş kəsmək normal bir hal sayılır. Çünki bizdə yolun kənarında heyvanları insanların gözü önündə kəsirlər. Qurban bayramında bunun daha çox şahidi oluruq. Uşaqlar da bu vəziyyəti görür və bir növ buna öyrəşir, normal hal hesab edirlər. Amma mən bu baş kəsməyi normal hal hesab etmirəm. Çünki bu, insanda uyğunlaşma yaradır. Bu gün heyvanın başını kəsən sabah insanın başını kəsəcək. Ona görə də Azərbaycanda baş kəsməklə bağlı qətllər daha çox baş verir. İnsanların daxilində kobudluq yaranıb. Amma mərhəmət hissi tərbiyədən, kitablardan, dərslərdən, çox şeydən asılıdır. Baş kəsmək isə ümumiyyətlə insana xas olan bir şey deyil. Qədimdə bəlkə ova çıxırdılar deyə bu lazım idi. İndi isə buna ehtiyac yoxdur. Bunun üçün xüsusi yerlər var ki, mal-qaranı orada kəsirlər. Orada işləyən insanların da bu peşəsidir. Ancaq sadə bir insanın baş kəsməsi normal deyil. Bu gün İŞİD kimi dini radikal qrupların insanların başlarını kəsib onun videogörüntülərini sosial şəbəkələrdə yaymaları insanlarda adiləşmə yaradıb. İnsanlar buna artıq adi bir hal kimi baxırlar. Bu da cəmiyyət üçün normal deyil".



**Dəyanət Rzayev:** "Bu gün heyvanın başını kəsən sabah insanın başını kəsəcək"

Bir sıra insanlar da var ki, onlar hansısa heyvanın başını kəsdikdən və ya hansısa cinayət işlədikdən sonra qaçmır, elə oradaca oturub qalır ki, buna da qan tutulması deyilir. Hətta bəzi insanlar var ki, onlar bir az qan görən kimi özlərini itirir, hətta bu, bayılma ilə nəticələnir.

Maraqlıdır, qan insanda niyə tutqunluq yaradır? Bunun da hansısa psixoloji açıqlaması varmı?

**Psixoloq bunun da bir psixoloji faktor olduğunu dedi:** "Qan daha çox ölümlə bağlı olduğu üçün insana psixoloji təsir edir. Hansısa yaralar, zədələr və sairələr ölümlə nəticələnə bilər. Buna görə də insanın daxilində ölüm qorxusu yaşayır. Ona görə də insanda qan tutqunluğu yarana bilər. Bu, sırf psixoloji faktordur".

❑ **Günel MANAFLI**

## Qubada 82 yaşlı qadın evdə yanaraq öldü

**Quba rayonunda fərdi yaşayış evində yanğın baş verib.**



"Report" xəbər verir ki, hadisə şəhər ərazisində 82 yaşlı Gövhər Əliyevaya məxsus evdə qeydə alınıb. Nəticədə ev əşyaları ilə birlikdə yanıb.

Hadisə yerinə Quba Rayon Yangından Mühafizə Xidmətinin yanğın söndürüən maşınları və canlı qüvvəsi cəlb olunub.

Yanğın söndürüldükdən sonra evdən G.Əliyevanın yanmış meyiti tapılıb.

Faktla bağlı araşdırmalara başlanılıb.

## Lənkəranda ahıl ər-arvadın meyiti aşkar edilib

**Lənkəran şəhərində ahıl ər-arvadın evlərində meyiti aşkarlanıb. Hadisə şəhərin Şəhidlər xiyabanı, 10 ünvanında qeydə alınıb.**



Həmin ünvanda yaşayan 1939-cu il təvəllüdlü Aydın Mirzəli oğlu Allahverdiyev və onun həyat yoldaşı 1941-ci il təvəllüdlü Azadə Rəcəb qızı Allahverdiyevanın meyiti dünən saat 13.00 radələrində tapılıb.

Ölümün səbəbləri hələlik məlum deyil. Onların hər ikisinin ağzından qan axdığı bildirilir.

Meyitlər müayinə üçün morqa aparılacaq.

Hüquq-mühafizə orqanlarının əməkdaşları hadisə yerində araşdırma aparır. (APA)

## Rusiyada axtarışda olan iki nəfər Şəkidə saxlanıldı

**Rusiyada axtarışda olan iki nəfər Azərbaycanda tutulub.**

Daxili İşlər Nazirliyinin mətbuat xidməti xəbər verir ki, Baş Cinayət Axtarış İdarəsi və Şəki şəhər (rayon) Polis Şöbəsi əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Rusiya Federasiyası Cinayət Məcəlləsinin 111-ci maddəsi (qəsdən sağlamlığa ağır zərər vurma) ilə axtarışda olan Nəcməddin İsayev və 131-ci maddəsi (zorlama) ilə axtarışda olan Cabir Yusifalıyev tutulublar.

# Hakim oğlunun ölümündə günahlandırılanın məhkəməsi başladı

**Rəhim Kərimov ifadə verməkdən imtina etdi:** "Narkotikdən istifadə etmədiyimi analizlər də sübut edir"

**Bakı Ağır Cinayətlər Məhkəməsində hakim oğlunun ölümünə səbəb olmaqda təqsirləndirilən 1987-ci il təvəllüdlü Rəhim Kərimovun cinayət işi üzrə məhkəmə prosesi davam etdirilib.**

Musavat.com-un prosesdə iştirak edən əməkdaşı xəbər verir ki, hakim Səbuhi Hüseynovun sədrliyi ilə keçirilən prosesdə ilkin baxış iclası baş tutub. Zərərçəkmiş tərəfin nümayəndəsi Ceyhun Yusifov mülki iddia qaldıraraq 149 min manat zərərin ödənilməsini tələb edib. Bildirib ki, bu məbləğin yarısı xəstə uşaqların müalicəsi üçün uşaq evinə, digər yarısı isə bu cür yol hərəkəti qaydalarının pozulması ilə bağlı tədris vəsaitlərinin hazırlanması üçün Diplomatiya Akademiyasına yönəldiləcək.

Təqsirləndirilən şəxsin vəkili Orxan Əhmədov mülki iddianın ayrıca mübahisə doğurduğunu, buna görə də icraatın ayrılmasını istəyib. Prokuror ittiham aktını elan edib. R.Kərimov özünü təqsirli bilmədiyini deyib.

R.Kərimov hadisə barədə ifadə vermək istəsə də, sonradan bu fikrindən daşınıb. İki ali təhsilinin olduğunu, həkim ailəsində böyüdüyünü deyən R.Kərimov hadisə baş verən gün narkotik vasitədən istifadə etmədiyini deyib.

**Sonra ifadə vermək istəməməsini belə izah edib:** "Narkotikdən istifadə etmədiyimi analizlər də sübut edir. Kameralarda da düşüb ki, mən hadisə yerindən qaçmamışam. Ancaq istintaqda bunların əksi göstərilib. Buna etiraz olaraq ifadə vermək istəmirəm".

O, ifadə vermədiyi üçün ibtidai istintaqa verdiyi ifadələri elan olunub.

**Məlum olub ki, ilk ifadəsində deyib ki, hadisəni xatırlamır. O, maşında yatdığı üçün qəzadan sonra ayılıb:** "Qolumun sındığını bildim. Buna görə xəstəxanaya getdim. Hadisənin necə olduğunu xatırlamıram, sükan arxasında yuxulamışam. Qəzadan sonra ayıldım. Mərhumun anası qəza olan yerə gəlib dedi ki, "qəzanı kim törədib? Göstərin, onu öldürəcəm"". **Təqsirləndirilən şəxs narkotik vasitədən istifadə etməsi ilə bağlı deyilənlərə istintaqda belə cavab verib:** "Mən əvvəllər Moskvada nevroloji problemimə görə müalicə olunmuşam, psixotrop maddələri də o zaman qəbul etmişəm".



İş üzrə zərərçəkmiş kimi Nizami Əkbərov tanınıb. O, qəza törədilən maşının sahibi olub.

Dövlət ittihamçısı zərərçəkən N.Əkbərovdan sürücü R.Kərimovla əmək müqaviləsi bağlaması, əmək haqqını hansı yolla ödəməsi, vergi ödəməsi barədə suallar verib. N.Əkbərov maşının özünün olduğunu, istədiyi vaxt sürücünü işlə bağlı harasa göndərə biləcəyini deyib. Dövlət ittihamçısı bununla bağlı prokurorluğa müraciət edəcəyini bildirib.

**N.Əkbərov R.Kərimovla qohum olduğunu, onu uşaqlıqdan tanıdığını deyib:** "Amma onun narkotik istifadə etdiyini birinci dəfə sizdən eşidirəm. Onun bundan öncə nəyəsə görə istintaqa çağırıldığını bilmirəm".

Məhkəmə prosesi noyabrın 29-da davam etdiriləcək.

Qeyd edək ki, qəza zamanı ölən 19 yaşlı Rüfət Allahverdiyev ADA universitetinin tələbəsi olub.

Onun atası Elbəy Allahverdiyev daha əvvəl Gəncə Ağır Cinayətlər Məhkəməsinin hakimi vəzifəsində çalışıb.

Faktla bağlı Cinayət Məcəlləsinin 267.1-ci (sərnişin, piyada və ya yol hərəkətinin digər iştirakçıları (bu Məcəllənin 263-264 maddələrində nəzərdə tutulmuş şəxslər istisna olmaqla) tərəfindən yol hərəkəti və ya nəqliyyat vasitələrinin istismarı qaydalarının pozulması, ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına az ağır və ya ağır zərər vurulmasına səbəb olduqda) maddəsi ilə cinayət işi başlanıb.

Qəzanı törədən Rəhim Kərimovun atası Kərimov Yüzarsif Respublika Klinik Xəstəxanasının keçmiş baş həkimidir, əvvəllər Səhiyyə Nazirliyinin Rəyasət Heyətinin də üzvü olub.

❑ **İlkin MURADOV**

# "Evdə oturub acından ölüncə..."- soyuq Bakı küçələrindən reportaj

## Küçədə alver edənlər üşüməkdən deyil, hava soyuyanda müştəri azlığından gileylidirlər

**İki gündür ki, ölkədə havanın temperaturu kəskin şəkildə aşağı düşüb. Bakıda artıq qışın "nəfəsi" hiss olunur. Havanın soyuması ilə adamlar mümkün qədər çalışırlar ki, evə və ya isti məkanlara tez getsinlər.**

Amma paytaxtda soyuq-isti demədən gününü küçədə keçirməklə pul qazanıb ailəsini dolandıranlar da az deyil.

Bəs soyuq havada onlar nə edirlər? "Yeni Musavat" olaraq, onların bir qismini sizə təqdim etməyə çalışdıq. Paytaxtda "küçədən pul çıxaranlar" daha çox xırda ticarətlə məşğul olanlar və müxtəlif peşə sahibləridir. Onlar üçün havanın necə olması nəyisə dəyişmir. Söhbətimiz əsnasında bildirdilər ki, artıq bu cür həyata öyrəşiblər. Çünki başqa variantları da yoxdur. Səbəb isə odur ki, əgər bir gün işləməsələr, ac qalarlar...

**Həmsöhbətimiz tərəvəz satıcısı Aqşin bildirdi ki, hər gün səhər saat 6-dan Nardarandan müxtəlif növ göyərti gətirərək metronun "Neftçilər" və "Qara Qarayev" stansiyaları ətrafında satır. Aqşin soyuqdan qorxmadığını söyləsə də, göyərmiş yanaqları, büzüşmüş çiyinləri onu ələ verirdi. Bu mənzərəni Aqşin kimi arabada tərəvəz satan digər şəxslərin də simasından müşahidə etdik. Onların əksəriyyəti soyuq havadan deyil, işsizliklərindən şikayətləndilər:** "Özüm Nardaranda yaşayıram. Türkan və Maştağadan göyərti gətirib şəhərdə satıram. Amma bizə bir yerdə dayanıb mal satmağa çox zaman icazə verilmir. Ona görə də elə olur ki, əlimizdə malımız qalıb xarab olur. Biz də tullayırıq çölə. Yəni demək olmaz ki, ticarət yaxşı gedir. Baxın, arabanın altındakı yeşiklərdə hamısı xarab olmuş məhsullardır. Normal iş olsa, biz də gedib işləyərik. İş yoxdur, biz də çalışırıq ki, az da olsa pul qazanıb ailəmizi saxlayaq. Hava soyuyanda insanlar çölə az çıxdıqları üçün müştəri də az olur. Ancaq bizim evdə oturmaq kimi üstünlüyümüz də yoxdur. Evdə oturub acından ölüncə, elə burada dayanıb soyuqdan donuruq da... 30 yaşım var, ancaq evlənmirəm. Özümü güclə saxlayıram. Ailəmi necə saxlayacam? Evdə bir yaşlı anamdır, bir də mən. Gündəlik 5-10 manat xeyir olanda, sevinirik".







Qazanclarını küçədə xırda ticarətdən çıxaranlar daha çox metro girişlərinin yaxınlığında dayanırlar. Öyrəndik ki, buna səbəb, təkcə həmin ərazilərdə insanların çox sıx olması deyil, kiçik ticarətlə məşğul olanlar metro keçidlərindən həm də qızınmaq üçün istifadə edirlər.

**Metronun "Gənclik" stansiyasının yaxınlığında dayanıb, Lənkərandan Bakıya limon satmağa gələn nənələr də bu qəbildəndir. Onlarla söhbətimiz zamanı öyrəndik ki, əllərini donmamaq üçün bir-birinə sürtən, ağarmış saçlarını qalın örtüklə örtüb, köhnə palto geyinən bu nənələrin birinin 74, digərinin isə 76 yaşı var. Hər gün səhərdən axşama qədər, qeyd etdiyimiz metro stansiyasının girişində lavaş və limon satırlar. Söylədilər ki, piyada keçidində onlara satışa icazə vermirlər. Ona görə də soyuqdan donsalar da, məcburən işlərindən qalmırlar:** "Soyqudan donmamaq üçün növbə ilə düşüb piyada keçidində qızınırıq. Limonu Lənkərandan gətiririk, öz həyətimizin məhsuludur. Kənddə iş olmadığı üçün ailəmizin dolanışığı yaxşı deyil. Ona görə də gəlib burada 5 limonu 1 manata satırıq. Çox soyuq olanda, malımız əlimizdə qalır, biz də məcbur olub bir az da ucuz qiymətə veririk. Əlbəttə ki, soyuq bizə də təsir edir. Çox soyuq olanda üşüməmək üçün butulkaya isti su doldurub, oturduğumuz yerdə onu qucaqlayıb qızınırıq. Nə edək..."

Yuxarıdakılar küçədə qara-borana baxmadan, halal zəhməti ilə pul qazananlardır. Bir də var, Bakı küçələrində özlərindən "ssenari" qurub, insanları aldadanlar...

Onlara daha çox metronun "20 Yanvar", "Elmlər Akademiyası" və "28 May" stansiyalarının yaxınlığında rast gəlmək olur. Son zamanlar isə bu cür adamların sayları xeyli dərəcədə artıb. Onların "ssenari"ləri bir-birilərinə çox bənzəyir. Əksəriyyəti qarşısına çıxandan 1 manat istəyərək bildirir ki, "rayona getməlidir, ancaq pulunu oğurlayıblar". "28 May" stansiyasının yaxınlığında bizə də yaxınlaşıb, eyni ssenarini danışdılar. Orta yaşlı kişi söylədi ki, rayona getməlidir, ancaq telefonu və pulu oğurlanıb. Polisə yaxınlaşıb bu barədə məlumat verməyini söylədiyimizdə isə "lazım deyil" deyib, iti addımlarla bizdən uzaqlaşdı...

❑ **Əli RAİS**

**Fotolar müəllifindir**


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarn dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**


## Elan

**Abşeron rayonu, Məmmədli kənd sakini Əhmədova Minayə Murad qızının adına olan seriya RX 0691777 çıxarış sənədi itdiyi üçün etibarsız sayılır.**

# İbrahim Kərbəlayev: "Problem əməkdaşlarımız tərəfindən aradan qaldırılacaq"

**Noyabrın 15-dən sonra qış rejiminə keçidlə bağlı qazların təzyiqinin yüksəlib, qış rejiminə uyğunlaşdığı deyilsə də, bir çox ərazilərdə qaz "şam kimi yanır" desək, yanılmarıq. Bununla bağlı Nərimanov rayonundan, Xətai rayonundan, Bülbülə qəsəbəsindən şikayətlər gəlib.**

Nərimanov rayon sakinləri qazın şam kimi yandığını, elə evlər var ki, qaz sobasından istifadə etdiklərini və evi qızdıra bilmədiklərini deyirlər. Qış rejiminə keçidə baxmayaraq, təbii mavi yanacağın niyə bu qədər zəif olduğunu öyrənmək üçün "Azəriqaz" İstehsalat Birliyinin ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi İbrahim Kərbəlayevlə əlaqə saxladıq.

İ. Kərbəlayev əhalidən bu kimi problemlərlə bağlı qaynar xəttə müraciət etmələrini xahiş etdi: "Hansı mənzildə qazla bağlı çatışmazlıq yaşanırsa, bununla bağlı 104 və 185 saylı xətlərə zəng edib məlumat versinlər. Verilən məlumata əsasən əməkdaşlarımız tərəfindən gəlib yerində qaz təchizatına baxılacaq və yerində tənzimləmə işləri aparılacaq. Yəni istənilən yerdə qazla bağlı çatışmazlıq varsa, bununla bağlı mütləq qaynar xəttə müraciət edilməlidir. İstehlakçılara göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması üçün artıq dünəndən etibarən qaynar xəttimizin-104-ün veb səhifəsi yaranıb. Azəriqaz104.az saytı fəaliyyətə başlayıb. İstehlakçılar əgər gözləmək məcburiyyətində qalırsa, bu səhifəyə elektron müraciət edə bilər. Biz qaynar xəttə daxil olan çoxsaylı müraciətləri araşdırmışıq. Səhifənin ən çox verilən suallar bölümünə daxil olmaqla dərhal cavab ala bilərsiniz. O cümlədən də respublika ərazisində hər hansı bir mənzildə, fərdi yaşayış evində qazla bağlı çatışmazlıq varsa, müraciət edilir, həmin abonentin əlaqə nömrəsi, ünvanı götürülür və həmin əraziyə, mənzilə əməkdaşlarımız tərəfindən baxış keçirilir. Yəni qazla bağlı problemlərdə, dediyim kimi, müraciət edildikdən dərhal sonra problem əməkdaşlarımız tərəfindən aradan qaldırılacaq".

❑ **Günel MANAFLI**



# "Nar" operatoru "Microsoft Imagine Cup" innovasiya müsabiqəsinə dəstək verməyə davam edir

**Gənc kadrların formalaşmasına, onların bilik və bacarıqlarının artırılmasına xüsusi önəm verən "Nar" bu il də "Microsoft Imagine Cup" innovasiya müsabiqəsinə dəstək vermək qərarına gəlib. Azərbaycan Respublikası Təhsil nazirliyi, "Microsoft Azerbaijan" şirkəti, Yüksək Texnologiyalar Parkı və "Nar" tərəfindən ənənəvi olaraq dəstəklənən "Microsoft Imagine Cup" dünya tələbələri arasında hər il keçirilən ən miqyaslı innovasiya müsabiqəsidir.**

**Qeyd edək ki, Azərbaycanda sözügedən müsabiqə ildə bir dəfə olmaqla artıq üçüncü dəfə təşkil olunur. Müsabiqə çərçivəsində ali və peşə təhsil müəssisələrinin tələbələrindən ibarət komandalar üç kateqoriya üzrə iştirak edirlər: "İnnovasiya", "Dünya vətəndaşlığı" və "Oyunlar". Müsabiqədə iştirak etmək üçün "Microsoft" platforması üzərində innovativ proqram layihəsi, "Microsoft" texnologiyaları əsasında müasir dövrün problemlərini həll edən tətbiqin prototipini və ya istənilən "Microsoft Windows" platformaları üzərində orijinal oyun hazırlamaq lazımdır.**

**21 noyabr 2016-cı il tarixdə müsabiqə münasibətilə təşkil olunmuş görüşün əsas məqsədi tələbələrin yenilikçi ideyalara malik gənclər üçün mövcud olan imkanlar haqqında məlumatlandırılması idi. Tədbirdə informasiya texnologiyaları və biznesin inkişafı istiqamətində yerli və xarici şirkətlərin təqdim etdiyi məhsul, proqram və təşəbbüslər təqdim olundu. Görüş çərçivəsində ənənəvi "Microsoft Imagine Cup - 2017" müsabiqəsinin şərtləri izah olundu. Bununla bərabər, tələbələr üçün nəzərdə tutulmuş digər layihə və imtiyazlar da tədbirdə müzakirə edilən mövzular arasında yer aldı.**

**Təhsil, elm və mədəniyyətin inkişafı "Nar" korporativ sosial məsuliyyət (KSM) strategiyasının başlıca prioritetlərindəndir. Mobil operatorun KSM strategiyası haqqında daha ətraflı məlumatı nar.az internet səhifəsindən əldə etmək mümkündür.**



# BŞİH bina tikən sahibkarlardan mənzil tələb edir

## Yeni tikililərin qaz və "kupça" probleminin əsl səbəbi...

**Bakıda yeni tikilən binaların ən böyük problemlərindən biri də onların istismara qəbul olunmaması və dövlət qeydiyyatından keçməməsi ilə bağlıdır. Həmin binalarda yaşayış olsa da, texniki baxışdan keçmədiyi üçün dövlət tərəfindən təhvil alınmır. Nəticədə həmin binalara çıxarış verilmir. Digər tərəfdən, texniki baxışdan keçməyən binaların daha böyük problemi həmin binalara qaz verilməməsidir. Bu yeni tikililərin sakinləri uzun illərdir məişətdə elektrik enerjisindən istifadə edirlər.**

Son olaraq mətbuatda, paytaxtın Həsən bəy Zərdabi küçəsində yerləşən "Üç Tac" ("Tri Korona) yaşayış kompleksinin sakinlərinin 16 ildir mavi qaz və çıxarış üzünə həsrət qaldığı yazılmışdı. Səbəb isə odur ki, bina FHN-in Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin müayinəsindən keçib və orada çatışmayan cəhətlər qeydə alınıb. Bina hələ də istismara qəbul edilməyib.

Qeyd edək ki, paytaxtda belə binaların sayı həddindən artıq çoxdur. Problemə münasibət bildirən **daşınmaz əmlak məsələləri üzrə ekspert Ramil Osmanlı** dedi ki, binaların dövlət qurumları tərəfindən istismara qəbul olunmamasının iki səbəbi ola bilər: "Mənzil tikinti korporativlərinin ya dövlət sənədlərində ciddi problemlər olur, ya sonradan tikinti üçün tələb olunan sənədlərdə problemlər olur. Bu iki problem səbəbindən sonradan koorporativlər texniki şərtləri almaqda çətinlik yaşayırlar. Üstəgəl, ayrı-ayrı dövlət qurumlarının problemə yanaşmasındakı qüsurlar, məqsədyönlü şəkildə bəzi məsələlərə göz yummaları bu cür problemlərin yaranmasına gətirib çıxarır. Faktiki olaraq bu sahədəki vəziyyət qənaətbəxş deyil. Nəticədə bu tipli yeni binalarda qaz xətti çəkilməyib. Bu da sakinlərin daha çox vəsait xərcləməsinə səbəb olur. Əgər həmin binaların qazı vaxtında çəkilmiş olsaydı, sakinlər normal şəkildə qazla təmin olunsaydı, onun aylıq kommunal xərcləri 50-60 manat olardı. İndiki halda isə qaz verilmədiyi üçün elektrik xərcləri bu rəqəmdən iki dəfə baha başa gəlir. Bu mənada problemin qarşısının alınması üçün addımlar atılmalıdır. Lakin bu istiqamətdə görülən işlər hələ ki qənaətbəxş deyil".



Binalara texniki şərtlərin verilməsi ilə bağlı məsələdə korrupsiya məqamları da müzakirə mövzusudur. İddialara görə, Bakı Şəhər İcra Hakimiyyəti bir binanı qeydiyyatdan keçirmək üçün sahibkardan həmin binanın 15 faizini ya mənzil, ya da nağd pul şəklində tələb edir.

**Bu məsələyə münasibət bildirən Ramil Osmanlı qeyd etdi ki, qanunvericilikdə bu nəzərdə tutulur, ancaq çox zaman məmurlar bundan sui-istifadə edir:** "Azərbaycan qanunvericiliyində bu məsələ var ki, tikinti şirkətləri respublika ərazisində tikdikləri mənzillərin 10 faizini dövlət qurumuna verməlidirlər. Hazırda tikintiyə nəzarəti Bakı Şəhər İcra Hakimiyyəti həyata keçirdiyinə görə həmin mənzilləri də məhz BŞİH qəbul edir. Lakin burada 5 faiz də artıq tələb olunur. Təəssüflər olsun ki, tikiləcək binanın 10 faizi hələ tikintinin əvvəlində pul şəklində şirkətlərdən alınır. Ümumilikdə Bakıda tikintiyə nəzarət bu gün BŞİH-in əlindədir. Çünki tikintidə tələb olunan 3 vacib sənəd var. Bu sənədlərin içərisində onlarla sənəd birləşir, müxtəlif qurumlardan FHN-dən, Arxitektura və Şəhərsalma Komitəsindən, "Azərsu", "Azərqaz" və "Azərişıq" kimi qurumlardan rəylər alınır. Yekunda bütün bu sənədlər toplusuna rəy verən qurum Bakı Şəhər İcra Hakimiyyətidir. Bu da BŞİH-in qeyri-leqal fəaliyyət imkanlarını artırır. Əslində 10 faiz mənzil formasında dövlət fonduna ödənilməlidir. Hansı kriteriyalarla, necə qiymətləndirildiyini bilmirəm, ancaq pul şəklində tikinti şirkətindən alınır. Aydın məsələdir ki, Azərbaycanda pul alınma məqamlarında çox zaman korrupsiya müşahidə olunur. Heç kimə sirr deyil ki, sənədlərdə göstərilən rəqəm faktiki alınan rəqəmdən iki dəfə aşağıdır".

Digər bir məqam odur ki, binaların istismara qəbul edilməməsi MTK-ların da işinə yarayır. Belə ki, həmin binadakı mənzillərin alış-satışı zamanı sənədləşmədə MTK birbaşa iştirak edir və prosesdən qazanclı çıxır.

**Bu məqama diqqət çəkən Ramil Osmanlı MTK-ların bu yolla ciddi məbləğdə vəsait qazandığını açıqladı:** "Dövlət qeydiyyatından keçməyən binalarda MTK rəsmiləri alqı-satqı zamanı vətəndaşlardan pul tələb edirlər. Şəhərətrafı qəsəbələrdə 2500-3000 manat, şəhər mərkəzinə yaxınlaşdıqca daha böyük məbləğlər tələb olunur. Nəzərə alsaq ki, bir il ərzində bir MTK-nın binasında təqribən 10 mənzil alqı-satqı predmeti olursa, mənzil tikinti korporativinin rəhbəri bu prosesdən 50-60 min, bəzən isə 100 min manata qədər gəlir əldə etmiş olur. Halbuki sənədləşmə olsaydı həmin vəsaitlər birbaşa dövlət büdcəsinə ödənilə bilərdi. Binaların istismara qəbulunun qarşısını alan qurumlar, əksinə, bunda maraqlı olmalıdırlar. Çalışmalıdırlar ki, binaların qəbulu məsələsi sürətləndirilsin. Əgər Azərbaycanda mənzillərin ilkin qeydiyyatı ilə bağlı problem aradan qalxarsa, dövlətin mənzil fondunun zənginləşməsinə, beynəlxalq hesabatlarda ölkənin mövqeyinin daha da yaxşılaşmasına və sonda alqı-satqı əməliyyatları zamanı dövlət büdcəsinə əlavə vəsaitlərin cəlb olunmasına şərait yarada bilər".

❑ **Nərgiz LİFTİYEVA**

# İş adamının intiharının sensasion detalları - şəriki onun ailəsini də intihara sövq edir

## Özünü güllələyən biznesmen Bəxtiyar Məmmədovun anası: "Adil Ağayev oğlumun pullarını mənimsədi, axırda balam özünü öldürdü, indi də bizi borcla yükləmək istəyirlər"

**2013-cü ildə borca görə intihar edən iş adamı Bəxtiyar Məmmədovun ailəsi daha bir problemlə üz-üzə qalıb. Redaksiyamıza müraciət edən mərhumun anası Şəfiqə Məmmədova bildirib ki, əvvəllər Tikinti Quraşdırma İdarəsinin rəisi vəzifəsində işləyən Adil Ağayev heç bir əsası olmadan onlardan 200 min manat pul tələb edir:**



"Bəxtiyar Məmmədov bizneslə məşğul idi. Təxminən 2010-cu ildə Adil Ağayevlə işbirliyi qurublar, alış-veriş ediblər. A. Ağayevə bildirib ki, Bəxtiyarı yüksək vəzifəyə qoyacaq. Bunun üçün Bəxtiyar Məmmədovdan 1 milyon 500 min manat alıb. Daha sonra Bəxtiyar Adilin məsləhəti ilə Xırdalan qəsəbəsində bina tikməyə 1 milyon 350 min manat vəsait ayırır. Bəxtiyarın 450 min manat dəyərində torpaq sahəsi var idi və onu bilinməyən səbəbdən Adil Ağayevin adına keçirib. Çünki Adil özünü Bəxtiyara inandıra bilmişdi. Bəxtiyar onun hər sözünə inanırdı və borc alıb biznesə qoyurdu. Nəhayətdə isə pullarının şəriki tərəfindən yoxa çıxarıldığını başa düşüb".

**Mərhumun anası Şəfiqə Məmmədovanın sözlərinə görə, oğlu bundan sonra özünə qapanmağa başlayıb:** "Ana kimi sevinirdim ki, oğlumun işləri alınır. Amma sonra gördüm ki, o, getdikcə geriləyir, 85 kilo çəkidən 60 kiloya qədər düşmüşdü. Özünə qapanırdı, dərdini heç kimə demirdi. 2013-cü il aprelin 10-da mənə zəng edib dedi ki, "ana, uşaqlardan muğayat ol, sən səbirlisən, onları 15 il saxlayarsan". Əvvəl başa düşmədim. Sonra anladıq ki, özünə qəsd etmək istəyir. Özümüzü ona çatdırmağa çalışdıq, amma alınmadı. Bakı-Şamaxı yolunun 50-ci kilometrliyində avtomobilində özünü silahla vuraraq intihar etmişdi.

Yas mərasimi keçdikdən sonra Adil Ağayevin yanına gedib onun işləri, olub-qalan pulları haqda maraqlandım. Amma Adil məni birtəhər qarşıladı və oğlumun var-dövlətindən heç bir kəlmə də demədi. Çıxarkən isə bildirdi ki, "nə mənim ona, nə də onun mənə borcu yoxdur". Axı bu necə ola bilərdi? Mənim oğlum biznesmen idi və bütün pullarını tikintiyə qoymuşdu. Aidiyyəti orqanlara müraciət etdik, bildirdilər ki, Adil Ağayevlə bağlı heç bir məsələ sübuta yetirilməyib. Daha sonra hər gün borclular gəlib pullarını tələb edirdilər. Məcbur qalıb qardaşının, bacısının, özünün evini satdıq.

İndi isə bu yaxınlarda bizə məhkəmədən bildiriş gəldi ki, Adil Ağayev Bəxtiyarın əmisi oğlu Elnur Məmmədovdan 200 min pul tələb edir, onun evinin satılmasını istəyir. Axı bu insan çox kasıb birisidir və onun evindən başqa heç nəyi yoxdur. Üstəlik, heç vaxt Elnur Məmmədov ondan borc pul almayıb. Məsələ belə olub ki, bir dəfə Bəxtiyar yanında işləyən əmisi oğluna zəng edib ki, gedib Adil Ağayevdən 200 min manat götürüb mənə çatdırarsan. O da mənim digər oğlumla birgə gedib pulu götürüb. Amma pul borc şəklində götürülməyib, şərikli biznesə aid olan pul kimi Bəxtiyara çatmalı idi və Adil onu verib. Bu məsələdən neçə il keçib, Adil Bəxtiyarın əmisi oğlunu məhkəməyə verib ki, guya o, pulu borc alıbmış. Axı bu tam yalandır. Bunu məhkəmədə sübut edə bilmirik. Bəxtiyarın intiharından sonra onun pulları, var-dövləti itib batdı. Bu azmış kimi, bütün borcluları ailəsinin üstünə göndərdilər. İndi də guya əmisi oğlunun borc aldığını sübuta yetirməyə, bu yolla pul əldə etməyə çalışırlar. Neyləyək, biz də Bəxtiyar kimi intihar edək? Bəxtiyardan mənimsədikləri pullar hesabına bizim başımıza oyun açırlar. Mətbuat vasitəsi ilə bütün aidiyyəti orqanlara səslənirəm, haqq-ədalətin bərpa olunmasında bizə köməklik göstərsinlər".

Xatırladaq ki, 2013-cü ildə Bakı-Şamaxı yolunun 50-ci kilometrliyində Abşeron sakini, 1974-cü il təvəllüdlü Bəxtiyar Barat oğlu Məmmədov özünə məxsus "Audi Q7" markalı, 90 RA 353 dövlət nömrə nişanlı avtomobildə "Vinçestr" markalı silahdan atəş açaraq özünü öldürüb. Abşeron Rayon Polis Şöbəsindən verilən məlumata görə, sement biznesi ilə məşğul olan Bəxtiyar Məmmədov külli miqdarda borcu olduğuna görə özünü öldürüb. Bəxtiyar Məmmədovun intiharından sonra onun şəriki, Tikinti Quraşdırma İdarəsinin rəisi vəzifəsində işləyən Adil Ağayev işindən qovulub.

**Yazıda adı hallanan qarşı tərəfin də mövqeyini dərc etməyə hazırıq.**

❑ **Xalidə GƏRAY**

YENİ MÜSAVAT

Son səhifə

N 260 (6581) 23 noyabr 2016



# Siqaret çəkmək irsən keçir

**İspan alimləri müəyyən etmişlər ki, siqaret çəkmək irsən keçməklə yanaşı, həm də vərdişdir. Siqaret çəkmək bir çox ailələrdə atadan oğula, anadan isə qıza irsi keçir. Santyaqo-de-Kompostel Universitetinin alimləri nikotindən asılılığın valideyndən uşağa keçməsini tədqiq ediblər. Siqaret elə ilk qüllabdan insan orqanizminə çox zərərli təsir göstərir. Əvvəllər ekspertlər başqa cür düşünürdülər: siqaret çəkmə orqanizmə bir neçə ildən sonra pis təsir göstərir.**

Əgər insan bir neçə dəqiqə siqaret çəkirsə, onun orqanizmində genetikanı pozan və xərçəng şişlərinin yaranmasına səbəb olan maddələr əmələ gəlir. Alimlər 12 könüllü üzərində eksperiment aparıblar. Onların qanında DNT-ni dağıdan polisiklik rayihəli karbohidrogenlərin (PRK) miqdarı yoxlanılıb. Bu zərərli maddələr insan orqanizminə tütün tüstüsü ilə daxil olur. Bir siqaretdən 15-30 dəqiqə sonra qanın tərkibində bu maddələrin səviyyəsi çox yüksək olur.

Tədqiqatın müəllifi, Minnesot Universitetinin professoru Stiven Xext deyib: "Bizim məruzənin ən dəhşətli tərəfi budur ki, xərçəngin yaranma etimalı 30 ildən sonra deyil, artıq birinci siqaretdən sonra yaranır".

# Gündəlik yazmaq vacibdir, çünki...

**İndi heç də hamı gündəlik yazmır. Amma psixoloqlar müəyyən ediblər ki, gündəlik yazmaq insanı gündəlik problemlərin yükündən az da olsa xilas edir. Bundan başqa, gündəlik keçmişə nəzər salmağa kömək edir. Bir neçə il əvvəl etdiyiniz qeydləri yenidən nəzərdən keçirib özünüzə gülə bilərsiniz. Və yaxud ağlaya... O vaxt sizi cənginə alan emosiyalarınızı və hansı hadisələrə səbəb olduğunu xatırlaya bilərsiniz.**



Uzun müddətdir psixologiyada qəbul olunmuş qaydadır ki, insan hər hansı bir problemlə qarşlaşdıqda, özünü çarəsiz hiss etdikdə və təslim olmağa hazır olduqda düşüncələrini qeyd olaraq bir kağız parçasına yazmaqdır. Bu, ilk baxışdan bəsit bir üsul kimi görünsə də, effekti inanılmazdır. Belə ki, düşüncələrinizi kağız parçasına köçürdükdə bir qayda olaraq və istər-istəməz onları təhlil etmiş olursunuz. Bəlkə axtardığınız həll yolu elə də uzaqda deyil. Sizə lazım olan beyninizi fikir yükündən azad etmək və sağlam düşüncəyə yer ayırmaqdır.

# Qadın stressda olanda ondan qəribə qoxu gəlir

**Əgər qadın stress halındadırsa, bunu həm görmək, həm də qoxumaq olar. Alimlər müəyyən edib ki, bu vəziyyətdə olan qadından analoqu olmayan özünəməxsus qoxu gəlir.**

ABŞ alimləri müəyyən ediblər ki, sarsıntının təsiri altında qadın bədənində qoxu dəyişə bilir. İnsan bədənində qoxunun sahəsində tanınmış mütəxəssis doktor Süzan Bile-Xulettin başçılığı altında bir qrup bu məsələni araşdırıb. Məlum olub ki, istidə və ya fiziki işlər görərkən ayrılan tər qoxusu stress zamanı əmələ gələndən fərqlənir.

Alimlər 44 qadından 3 fərqli şəraitdə (isti havada, idman edəndə və stress halında) tər nümunələri götürüb, təhlil ediblər. Stressin aromatının o birilərindən fərqləndiyi aşkarlanıb. Kişilər stress qoxusunu qadın tərləyən zaman ayrılan tər iyindən daha pis qarşılayır. Alimlərin araşdırmasına əsasən, fiziki iş görəndə və isti havada tər vəziləri ekzokrin şirəsi, stress zamanı isə apokrin vəzisi ekzo şirəsi ifraz edir. Məhz bu şirə bakteriyalarla qarışaraq, xoşagəlməz qoxu yaradır.





## Dünyanın ən qədim paltarının 5 min yaşı varmış...

**Misirdə qazıntılar zamanı tapılmış "Tərxan don" kimi tanınan qədim paltarın yaşı bu vaxtadək müəyyən edilməmişdi. Nəhayət ki, alimlər bu paltarın təxmini nə vaxt tikildiyini söyləyə biliblər.**

Tədqiqatçılar yaxşı vəziyyətdə qalan "Tərxan don"un beş min il əvvəl tikildiyini, əsl rənginin açıq boz olduğunu müəyyənləşdiriblər. Hazırda qədim Misir geyimi Londonun Viktoriya və Albert muzeyindədir. Bu, əslində sənət əsəridir, çünki paltar zərif tərzdə tikilib. Paltarın xırda büzmələrlə bəzədilmiş V şəklində boğazı və büzməli qolları var.

Güman edilir ki, paltar yuxarı təbəqədən olan yaxşı bədən quruluşuna malik gənc qıza məxsus olub. Bu paltar nə vaxtsa tapılmış paltarlar sırasında ən nadir və qədim sayılır.




**QOÇ** - Ulduzlar daha çox romantik duyğulara qərq olmağınızı tövsiyə edir. Çünki ətrafınızda bədxah adamların olması hələ dünyamızın pis olmasına dəlalət etmir. Tanrıya sığının.

**BUĞA** - Yaxşı olar ki, ixtiyarınızda olan bu təqvimdə qeyri-adi hansısa addımı atmayıb adi işlərlə məşğul olasınız. Onsuz da əvvəlcədən planlaşdırdığınız işlər bu gün reallaşmayacaq.

**ƏKİZLƏR** - Tanrı ixtiyarınıza elə bir gün verib ki, xeyli məmnun qalacaqsınız. İstər fəaliyyətdə, istərsə də qarşılıqlı münasibətlərdə xoş ovqat qazanacaqsınız. Bədxərclik etməyin.

**XƏRÇƏNG** - Ulduzlar şəxsi büdcəni artırmaq üçün uğurlar vəd etsə də, qərəzli sövdələşmələrə zəmin yaradacağınızdan narahatdır. İndi sizə reallığı nəzərə almaq ən vacib məsələdir.

**ŞİR** - Qarşınızda duran bu təqvim həyatınızda mövcud olan kompleks problemlərin həll olunmasına xidmət edəcək. Amma ilk növbədə tərəfdaşlarınızla sivil qaydada davranmalısınız.

**QIZ** - Rastlaşdığınız situasiyaların mürəkkəbliyi qərar çıxarmağınıza mane ola bilər. Odur ki, hər bir qərarı verərkən reallığı nəzərə alın. Bunu bacarsanız, hər şeydən razı qalacaqsınız.

**TƏRƏZİ** - Ümumi orqanizminizdə aktivliyin azalması gözlənilir. Bu səbəbdən sağlamlığınızı qoruyun ki, günün uğurlarını özünüzə yaxınlaşdıra biləsiniz. Yeni təkliflərə razılıq verin.

**ƏQRƏB** - Yaxşı olar ki, günün ilk yarısında neytrallığınızı qoruyasınız. Ələlxüsus da qarşılıqlı münasibətlərdə təmkinli olmalısınız. Nahardan sonra iş prinsipində uğurlarınız başlamalıdır.

**OXATAN** - Əgər öz güc və potensialınıza inanırsınızsa, boş dayanmayın. Məqsədinizə gedən yolda dayanmadan irəliləyin. Əmin olun ki, bu istiqamətdə etibarlı dostlarınızdan dəstək alacaqsınız.

**OĞLAQ** - Beyninizdə ilişib qalan arzularınızı tədricən reallaşdırmağa başlayacaqsınız. Bu istiqamətdə nüfuzlu və təcrübəli insanların köməyindən yararlanın. Büdcənizdə artım gözlənilir.

**SUTÖKƏN** - Çoxdan görmədiyiniz doğma və yaxınlarınızla görüşmək üçün bu təqvimdən yararlanmağa çalışın. Onsuz da təbiətin durumu fəaliyyətdə hər hansı yeniliyə çatmağa imkan verməyəcək.

**BALIQLAR** - Mistik deyimlərə əhəmiyyət verməkdənsə, Allahın adını uca tutub hərəkət edin. Əgər özünüzə əminsinizsə, bu təqvimdə böyük işlər görə biləcəksiniz. Duyğularınızı məhəbbətə həsr edin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Bir məktəbli üçün işləyən dəmir yolu



Yaponiyanın Hokkaydo adasında Kami-Sirataki dəmir yolu stansiyası yalnız 1 məktəbli qız üçün fəaliyyət göstərir. Əvvəlcə rəhbərlik bu çox da məşhur olmayan istiqamət üzrə qatar hərəkətini ləğv etmək istəyib. Lakin onlar daha sonradan öyrənirlər ki, burada məktəbli qız hər gün bu qatarla məktəbə gedir və bu qatar olmadan onun məktəbə getmək şansı olmayacaq. O zamandan etibarən qatar yalnızca onun üçün fəaliyyət göstərir.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 4.750